# Orfoqrafiya

Ədəbi dilin şifahi qolu ilə yazılı qolu da inkişaf edir. Yazılı qolun da öz xüsusiyyətləri, normaları, qayda-qanunları vardır.
Orfoqrafiya yunan sözü olub «düzgün yazıram» mənasını ifadə edir. Orfoqrafiya dilimizdəki sözlərin hamısının qrammatik formaları üçün vahid yazı qayda-qanunlarını müəyyən edir və onları daha da təkmilləşdirir. Sərhədlərin müəyyənləşməsini təmin edir (kök və şəkilçi nəzərdə tutulur). Orfoqrafiya qaydaları, sözlərin ayrı, bitişik, defislə, böyük hərflə yazılması, sətirdən-sətrə keçirilməsi qaydalarıdır. Orfoqrafiya dilimizin yazılı əsasını təşkil edir. Şifahi nitqi özündə əks etdirir, uzun ömürlü olur. Tarixi yaddaşımızı bu günümüzə, gənc nəsillərə çatdırır. Orfoqrafiya dialekt və məhəlli sözlərin, ədəbi dilə uyuşmayan hər bir sözün, ifadənin qarşısını alır, Orfoqrafiya hamı üçün məcburi olan vahid qaydaları sabitləşdirir və inkişaf etdirir.

Azərbaycan dilinin orfoqrafiyası və inkişaf tarixinə dair bir sıra dəyişikliklərə uğramışdır. Bu dəyişikliklər həm əlifba ilə, həm də dildəki bu və ya digər başqa dəyişikliklərlə əlaqədar olmuşdur. Məlum olduğu üzrə, orfoqrafiya əlifba ilə çox bağlıdır. Buna görə də əlifba dəyişildikcə orfoqrafiyada da müəyyən dəyişiklik əmələ gəlir. Azərbaycan yazısında ərəb, latın və rus əlifbalarından istifadə olunduğu üçün daha çox dəyişikliklər olmuşdur.

Ərəb əlifbası Azərbaycan orfoqrafiyasını həddindən artıq ağırlaşdırır və çətinləşdirirdi. Eyni zamanda, ərəb əlifbasından istifadə edilərkən yazılışda sabit qayda-qanun yox idi. Bu vəziyyət xalqın ümumi mədəniyyətinin inkişafına böyük maneə törədirdi. Elə bu səbəbdən XIX əsrin orfoqrafiya məsələləri görkəmli şəxsiyyətlərin nəzər diqqətini özünə cəlb etmişdir.

XIX əsrin böyük mütəffəkkir alimi M.F.Axundzadə öz dövründə Azərbaycan yazısında sabitliyin olmadığını görüb, orfoqrafiyamızın qaydaya salınmasına böyük səy göstərmişdir.

Onun bu sahədəki ən böyük xidməti yazımızda fonetik prinsipi irəli sürməsində, bunu həm nəzəri, həm də əməli surətdə əsaslandırmasında olmuşdur.

M.F.Axundzadə yazımızı asanlaşdırmaq məqsədi ilə, ilk dəfə olaraq, köhnə yazı qaydalarını pozmuş, dilimizin öz xüsusiyyətlərinə müvafiq və sözü tələffüzünə əsasən yazmağın təməlini qoymuşdur.

M.F.Axundzadə orfoqrafiya məsələlərinə öz yaradıcılığında xüsusi yer verməklə kifayətlənməyib, bu məsələyə daim nəzər yetirir, qəzetləri izləyir, başqalarına məsləhət və göstərişlər verirdi.

Azərbaycan dili orfoqrafiyasında fonetik prinsipə geniş yer verilməsində, yazımızın sadələşməsində M.F.Axundzadənin xüsusi rolu olmuşdur.

XX əsrin əvvəllərində də orfoqrafiya problemi prinsipial məsələlərdən hesab edilmiş, onu daha da asanlaşdırmaq, xəlqiləşdirmək üçün bir sıra işlər görülmüşdür.

Xüsusən 1907-1908-ci illərdə yazılmış “İkinci il” dərsliyində köhnə orfoqrafiya qaydaları pozulmuş, bəzi məsələlərdə Azərbaycan dilinin xüsusiyyətləri nəzərə alınmışdır.

Azərbaycan orfoqrafiyasında özünə yer tapmış dolaşıqlığı aradan qaldırmaq üçün M.Mahmudbəyov 1911-ci ildə, “İmlamız” adlı kitabca yazmış və o dövr Azərbyacan dili orfoqrafiyasının vəziyyətini şərh etmişdir. M.Mahmudbəyov Azərbaycan dilinin orfoqrafiyası üçün hansı prinsipin əsas götürülməsini müəyyənləşdirmək məqsədi ilə belə demişdir: “Türk ( Azərbacan ) dilinin imlası üçün əsaslı dəstəvüz nə ola bilər? Tələffüzmü, hazırkı imlamı? Ya dilin qanunumu.”

1922-ci ildən başlayaraq orfoqrafiya məsələlərinə də xüsusi diqqət verildi. Yeni orfoqrafiya qaydalarının tezisləri 1931-ci ildə “Azərbaycanı öyrənmə yolu” məcmusunda cap olundu.

1931-ci ildə II orfoqrafiya konfransı çağırıldı. Sonrakı illərdə Azərbaycan dili orfoqrafiyası qaydalarının layihəsi hazırlandı. 1936-cı ildə təsdiq və çap olundu.

1940-cı ildə çap olunmuş “Qaydalar” fonetik və morfoloji prinsiplər əsasında qurulmuşdur.1952-ci ildə 2-ci orfoqrafiya konfransı çağırıldı.

1940-cı ildə çap olunmuş “Qaydalar” fonetik və morfoloji prinsiplər əsasında qurulmuşdur. 1952-ci ildə Azərbaycan SSREA Ədəbiyyat və Dil İnstitutu orfoqrafiya qaydalarında bir daha bəzi dəyişikliklər etməyi lazım bilmişdir.

1958-ci ildə təsdiq edilmiş “Qaydalar” da qismən dəqiq olmayan maddələr də olmuşdur.

Orfoqrafiya lüğəti 1975-ci ildə nəşr olunmuşdur.

Axırıncı orfoqrafiya lüğəti 2004-cü ildə nəşr olunmuşdur.

Orfoepiya ilə orfoqrafiya arasında həm fərq, həm də möhkəm əlaqə vardır. Orfoqrafiya sözlərin düzgün yazılışını, orfoepiya isə düzgün tələffüz olunmasını tələb edir. Buna görə də düzgün yazmaq üçün düzgün danışmağı, düzgün tələffüz etməyi bacarmaq lazımdır.

Orfoqrafiyanın orfoepiyadan fərqi ondan ibarətdir ki, dildəki söz və ifadələr heç də həmişə yazıldığı kimi tələffüz olunmur. Belə ki, bəzən söz və ifadədə bu və ya başqa səs müəyyən fonetik vəziyyətə düşərək yazıdan fərqli şəkildə tələffüz

olunur. Lakin bu fərqlər çox böyük deyildir. Orfoqrafiya ilə orfoepiya arasındakı fərqlərin silinməsi dil üçün mühüm əhəmiyyətə malikdir.

**Orfoqrafiyanın prinsipləri.** Hər bir sözün müasir ədəbi tələffüz əsasında yazılmasını tələb edən prinsipə
fonetik prinsip deyilir. Bu prinsip üçün sözlərin deyilişi əsas meyar hesab olunur, yəni söz deyildiyi kimi yazılır. Məs:

| Deyilir: | Yazılır: |
|---|---|
| Ata | ata |
| Qara | qara |
| İki | iki |
| Mən | mən |
| Gəl (mək) | gəl (mək) |
| Tez | tez |

Azərbaycan dilinin orfoqrafiyasında başlıca prinsip fonetik prinsip hesab olunur. Dilimizdəki sözlərin çox hissəsi bu prinsip əsasında, yəni deyildiyi kimi yazılır.

Azərbaycan dilinin yazısı üçün təkcə fonetik prinsipi göstərmək olmaz. Çünki Ümumxalq Azərbaycan dilində eyni formada tələffüz olunan sözlərdən başqa, onun dialekt və şivələrində çox müxtəlif şəkildə tələffüz olunan sözlər vardır. Məs: atandan sözünü götürək. Bu söz ayrı-ayrı yerlərdə atonnan, atannan formalarında tələffüz olunur. Əgər belə sözlər hər yerin tələffüzünə uyğun yazılsa, onda yazımızda hərc-mərclik, dolaşıqlıq əmələ gələr. Elə buna görə də müxtəlif şəkildə tələffüz olunan sözlərin bu formada yazılmasını müəyyən etmək üçün yazımızda başqa orfoqrafik prinsiplərdən də istifadə olunur.

- Müxtəlif şəkildə tələffüz olunan morfemlərin (sözün mənalı hissələrinin) eyni

formada yazılmasını tələb edən prinsip morfoloji prinsip adlanır. Bu prinsip sözün mənalı hissələrinə əsaslanır. Morfoloji prinsipə əsasən, dilin xüsusiyyətləri nəzərə alınaraq, müxtəlif şəkildə tələffüz olunan kök və şəkilçilər deyildiyi kimi yox, vahid qaydada, yəni bir formada yazılır. Məs:

degil
dəgil
dəyil deyil
dəgül
döyü
döy

Şəkilçilərə aid misallar.

lar
baş dar baş - lar

lar
qar rar qar - lar

Göründüyü kimi deyil sözü bir neçə formada , cəm şəkilçiləri isə lar-lər, dar-dər və s. şəkildə tələffüz edilməsinə baxmayaraq morfoloji prinsip üzrə yazıda həmin sözlərin ancaq deyil variantından və şəkilçilərin ahənginə görə -lar –lər formasından istifadə olunur.

Morfoloji prinsipin mahiyyəti ondan ibarətdir ki, bu prinsip müxtəlif morfomlerdə olan səs dəyişmələrinin yazıya keçməsinə yol vermir və vahid qayda yaradır.

- Sözün müasir tələffüzünə əsasən yazılmasını deyil, onun tarixi yazılış formasının saxlanmasını tələb edən prinsip tarixi, yaxud ənənəvi prinsip adlanır. Bu prinsipə əsasən sözün tarixən necə yazıldığı əsas götürülür. Bunun nəticəsidir ki, bəzi sözlər ədəbi dildə tələffüz edildiyi şəkildə yazılmır. Buna görə də həmin sözlərin tələffüzü ilə yazılışı bir-birindən az-çox fərqlənir. Məs: Əlbətdə, hətda deyil, əlbəttə, hətta yazılır.

Bundan başqa, dilimizdəki sonu {q} və {x} səsləri ilə tələffüz edilən çoxhecalı sözlərin q hərfi ilə yazılmasında da ənənəvi prinsip əsas tutulur.

Azərbaycan yazısında ənənəvi prinsipdən az istifadə olunur. Çünki ənənəvi prinsip yazıda bir o qədər də əlverişli deyildir. Bu prinsip ümumiyyətlə, yazını ağırlaşdırır. Lakin buna baxmayaraq, bəzi xalqların yazısı orfoqrafiyanın əsasını ənənəvi prinsip təşkil edir.

# Durğu işarələri.

Dilçiliyin durğu işarələrindən bəhs edən bölməsi ümumiləşmiş şəkildə punktuasiya (latınca punktum sözündən olub, nöqtə deməkdir) adlanır. Punktuasiya durğu işarələrindən istifadə qaydalarının cəmi olub, orfoqrafiya və kalliqrafiya ilə birlikdə yazı qaydalarının nizama salınmasında xüsusi qiymətə malikdir.

Durğu işarələri dilin qrafik sistemində mühüm yer tutur, hərflərlə, rəqəmlərlə və bir sıra vasitələrlə verilə bilməyən cəhətlərin ifadəsinə xidmət edir.Yazılı nitqin düzgün formalaşmasında durğu işarələrinin böyük rolu vardır. Mətnin düzgün anlaşılmasına kömək etməklə mühüm kommunikativ funksiya daşıyır.

Punktuasiyanın əsaslarının izahında üç meyl, üç istiqamət vardır: bəziləri mənaya, bəziləri sintaktik quruluşa, bəziləri intonasiyaya əsaslanır.

Birinci halda durğu işarələrinin işlədilməsi mətnin mənalı hissələrə bölünməsi ilə bağlı izah edilir; ikinci halda cümlənin sintaktik quruluşu, üçüncü halada nitqin ritmik-melodik axını, vurğu, fasilə və s. əsas götürülür.

Durğu işarələri iki funksiya yerinə yetirir. Buna görə də iki qrupa ayrılır:

a) Ayrıcı işarələr
b) Fərqləndirici işarələr

   Ayrıcı durğu işarələrin əsas funksiyası cümlələri, cümlənin həmcins üzvlərini, mürəkkəb cümlənin komponentlərini və sairi ayırmaqdır. Bu qrupa nöqtə, sual və nida işarələri, qoşa nöqtə, nöqtəli vergül, çox nöqtə dxildir. Fərqləndirici durğu işarələri cütüzvülüdür, vasitəsiz nitqi, sitatları, ara cümlə və əlavə konstruksiyaları fərqləndirmək üçün işlədilən iki vergül, iki tire, mötərizələr və dırnaqlardan ibarətdir.

**Nöqrəli vergül-** nöqtə iə vergül arasında orta mövqe tutan, nöqtədən az, vergüldən çox fasilə tələb edən bir durğu işarəsidir. Sadə cümlənin həmcins üzvləri qrup-qrup sadalandıqda və ya tabesiz mürəkkəb cümlənin tərkib hissələrindən birindəı vergül olduqda daha geniş fasilə tələb olan tərkib hissələr arasına nöqtəli vergül qoyulur; Məs: *O gözəl olduğu qədər də macəraçı və iftiraçı idi; o bir gün də olsa, böhtan və iftira toxumadan yaşaya bilməzdi.; Sən o şairi çox da həqir hesab etmə; o gəncdir, fəqət bizim kimi gənclərdən deyil.*

**Çox nöqtə** də bir tərəfdən vergülə, o biri tərəfdən nöqtəyə yaxındır. Çox nöqtə adətən üç nöqtə şəklində olur. Sitatlarda özgəsinin nitqi kəsildiyi yerdə ( sitatın əvvəlində, ortasında və ya sonunda) üç nöqtə qoyulur. Cümlənin ortasında və ya sonunda qoyulan çoxnöqtə fikrin bitmədiyini göstərir. Fikrin bitməməsi müxtəlif səbəblərdən ola bilir. Onu davam etdirməyi ya müəllif lazım bilmir, ya gizli saxlamaq məqsədilə demir, ya da elə sözlər olur ki, onun deyilməsi cəmiyyət üçün məqbul deyildir, ya yaddan çıxmış olur, ya fikir başqası tərəfindən kəsilir, ya da natiq həyəcanlı olduğu üçün fasilələrlə danışmalı olur. Məsələn:

*O, hara isə əfsanəvi bir aləmə gedir və o aləmdə onu, kim bilir, nələr gözləyir...*

*-Mirzə Qələndər, mənə yox da... Mən gimnaziya qurtarmışam.... Özüm də Allaha inanıram, amma siz mollaların hiylələrini də bilirəm axı.*

*Qaldı sünnü olmağı... bayram heylə şeylərə fikir verən deyil.*

Qoşa nöqtə- aydınlaşdırma məqsədi iə işlədilir; başlıca olaraq, həmcins üzvlərdə ümumiləşdirici sözdən, aydınalşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə ümumilik bildirən tərkibdən, vasitəsiz nitqdə müəllif sözlərdən sonra qoyulur; Məs:

*Edama toplanmış camaatdan səs çıxmadı: nə qoca dindi, nə cavan, nə qız, nə gəlin.*

*O öz qəlbində deyirdi: "Ərəb, türk və rum qanından yaradılan bu möcüzə gənc şairin qəlbini əsir edə bilər".*

*Həyətin işığından göz qamaşırdı: hər küncdə süd rəngli bir lampa yanırdı.*

Vergül daha çox işlənən, rəngarəng məqamlarda özünü göstərən durğu işarəsidir. Vergül cümlə sərhədi ilə bağlı deyil, cümlə daxilində işlənən durğu işarəsidir. Sadə cümlənin həmcins üzvləri, tabesiz və tabeli mürəkkəb cümlələrin tərkib hissələri arasında, qoşmalı xüsusiləmələrdən sonra, dəqiqləşdirici xüsusiləşmələrdən əvvəl vergül qoyulur.

*Onun ziyarətinə Hinddən, Çindən, Rumdan, Hicazdan, Dəməşqdən, Bağdaddan, Bəsrədən gəlirlər.*

*Bir anda Məhsəti xanımın oturduğu taxtrəvanı yüzlərcə şairlər, yazıçılar, musiqiçilər, şer və musiqi həvəskarları aralığa aldı.*

*Yad səsi eşidən kimi, Səkinə də oyanırdı.*

*Bilirdi ki, bayaq İsmayıla dediyi söz onun xətrinə dəyib.*

Alçaq tonla tələffüz edilən xitablar, ara sözlər, nidalar, bəli, yox, xeyr sözləri, vokativlər vergüllə ayrılır, təkrara olunan sözlər arasında vergül qoyulur.

*Hardasan, ey ilk baharım, hardasan? Nazlı yarım, sux nigarım, hardasan?; Həyat, sevincin qədər əzabın da şirindir.*

*Təəssüf olsun ki, o qüvvə bizdə yoxdur.; Sadıq babaya elə gəlirdi ki. kim bu dnyada qocalsa da, o qocalmaz.*

*Bu söhbət zamanı Səkinə nənə komaya girib:- Qadan alım, Xanmurad, necəsən?- dedi. Sən mənə bir şey demək istəyirsən?- Yox, nə olub ki?*

*Canavarın beyninə qəfil bir fikir gəldi: görəsən əqrəb özü ölüb, ya dozanqurdular onun axırına çıxıblar?*

Vergülün əsas funksiyası aydındır və əksərən yazıda ondan düzgün istifadə edilir. Müşahidələr göstərir ki, çətinliklər daha çox feli bağlam tərkiblərindən, xüsusiləşmələrdən sonra vergülün işlənməsi ilə bağlıdır. Baxmayaraq, halda, əlaqədar olaraq, yanaşı olaraq, fərqli olaraq tipli sözlərlə qurtaran xüsusiləşmələrdə bu sözlərdən sonra mütləq vergül qoyulur.Məs:

*Texnik olduğuma baxmayaraq, Adilin yazdığı rəqəmlər mənə birdən-birə son dərəcə cansıxıcı göründü. Ailəsinin dağılmasına, var-yoxunun əldən çıxmasına, ayağının*

*birini itirməsinə baxmayaraq, Məsum çox nikbin idi. Sualını söyləməyə cəsarəti çatmadığı halda, bütün qonşulardan cavab umdu.*

Öz aralarında həmcins olan feli bağlama tərkiblərindən sonra (sonuncudan başqa) vergül qoyulması təbiidir. Məs:

*Canı lap bərk ağrıyanda, ağrı fəqərə sütunu boyu yuxarı qalxıb bütün bədənini çulğalyanda hökmdar, Xacə Ənvərin yanında göz yaşlarını axıtmaqdan da çəkinmirdi.*

**Tire** işarəsi, başlıca olaraq,sadə cümlədə həmcins üzvlərə aid ümumiləşdirici sözlərdən,aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə ümumilik bildirən tərkib hissədən əvvəl qoyulur (bu zaman həmvins üzvlər ümumiləşdirici sözdən, tabesiz mürəkkəb cümlədə aydınlaşdıran tərkib hissələr ümumilik bildirən tərkibdən əvvəl işlənmiş olur); vasitəsiz nitq dialoq şəklində qurulduqda vasitəsiz nitqdən əvvəl və sonra ( əgər sonra müəllif nitqi davam edərsə), bəzi ara cümlələrdən əvvəl və sonra, xüsusiləşən əlavələrdən əvvəl, zaman, məkan bildirən sözlər arasında da tire qoyulur.

*Rast gəldiyi hər yeri- meşəni, bağı, dərəni, diqqətlə yoxlayırdı.*

*Atlı cilovu buraxıb təpələrin arasındakı cığırlardan aşağıya –Kür çayının vadisinə enirdi.*

- *Bu nə əhvalardır,-deyə anam təəccüblə soruşdu.*

Mötərizə- daha çox ara və əlavə cümlələrlə bağlıdır. Bundan əlavə, dram əsərlərində obrazların dsavranışı və nitqi ilə bağlı izahlar, elmi əsərlərdə sitatların mənbələri, tarixi illər və s. mötərizədə verilir. Məs:

*Getdikcə xəyalımda yaranan bu aləm mənə real həyatdan, təsadüf elədiyim insanlardan (yalnız anamdan başqa) daha artıq xoş gəlirdi. İradə gəlib heç kəsin üzünə baxmadan dinməz-söyləməz dayımın uzunboğaz çəkmələrini zorla çəkib çıxardı (qəşəng görünsün deyə, dayım həmişə ayağına güclə pərçim olan uzunboğaz çəkmə geyərdi).; Dilşad xanım (onun ardınca qəzəbli bir nəzər salaraq).- Ah... Siz Atayevlər!..*

Dırnaq- qoşa işlədilən işarədir; təhkiyə daxilində vasitəsiz nitq, bədii və elmi əsərlərdən gətirilən sitatlar dırnaq arasına alınırş. Kinayə ilə işlədilən söz və ifadələr, kitab, jurnal, qəzet, mahnı adları da dırnaqda yazılır. Məs:

*Uzun Həsənin “Qanunnamə”sinin hazırlanmasında vəzir yaxından iştirak etmişdi. İsmayıl Səkinənin “Ruhani” havasını çaldığı vaxtdan fikirləşirdi. “ Bəs niyə hava qoşublar, söz yoxdur. Havada o soyulan şairin dərdi, əziyyəti var. Ancaq elə bil, dilini açıb bir kəlmə danışmaq istəməyib”.*

**Qeyd:**

1. Defis və apastrof durğu işarəsi deyil. Defis mürəkkəb sözlərin arasında və şəkilçilərdən əvvəl işlənən işarədir. Apastrof isə ərəb dilindən və Avropa dillərindən gələn sözlərdə saiti əvəz edən bir işarədir.
2. Vasitəsiz nitqdə və əlavə cümlələrdə dırnaqlar və mötərizələri tirelərlə əvəz etmək olar.
3. Mübtəda və tamamlıq budaq cümləsindən sonra bəzən qoşa nöqtə qoymaq olar: Onun xasiyyəti idi: hər gələnə söz desin. Ana düşündü: bunu kim etmiş olar?
4. Durğu işarələrinin yazıda səhv işlədilməsi və ya qoyulmaması orfoqrafik normanın pozulması hesab olunur.
5. Durğu işarələrinin oxunması ideoqrafik yazıya əsaslanır.
6. Mötərizə, nöqtə və tire qoşa işlənə bilər.
7. Dırnaq qoşa işlənir.

## Ədəbi tələffüzün mənbələri

* Ədəbi dilin formalaşması və inkişafı tarixindən bizə məlumdur ki, ədəbi tələffüzün əsas mənbəyi ümumxalq dili və onun şiə qolları olmuşdur. Azərbaycan ədəbi dilinin təzahür vasitəsi olan Azərbaycan ədəbi tələffüz normaları aşağıda üz mənbə üzərində aparılan seçmə, əvəzetmə əməliyyatı əsasında müəyyənləşdirilir.

**Şivələr.** Ədəbi tələffüz normalarının müəyyənləşdirilməsində istifadə olunan ən mühüm mənbə şivələrdir.

Ədəbi tələffüz normalarının müəyyənləşdirilməsində müxtəlif dil vahidləri ilə əlaqədar olaraq bu və ya digər dərəcədə şivələrin hamısından istifadə olunur.

Bəs şivələrdən hansı yollarla istifadə olunur? Bu zaman mərkəzləşdirmə prosesinin böyük rolu vardır.

Mərkəzləşdirmə əsasən 2 pillə üzrə aparılır. I pillə bu və ya digər rayon mərkəzi olan şəhərin, qəsəbənin şivələrinin rayon mərkəzində qovuşma və ümumiləşmə pilləsidir. Məs: naxşıvan, Şuşa və s.

II pillə əsasən şivə qrupları üzrə ümumi mərkəzdə - qovuşma və ümumiləşmə pilləsidir.

**Yazı.** Ədəbi dilin tələffüz normalarının müəyyənləşdirilməsində istifadə olunan mənbələrdəndir. Yazı dedikdə həm yazılı ədəbi dil materialları, həm də əlifba sistemi və orfoqrafiya qaydaları nəzərdə tutulur.

Müasir Azərbaycan yazı sistemi, orfoqrafiya qaydaları tələffüz normalarının müəyyənləşdirilməsində olduqca əlverişli mənbədir. Müasir Azərbaycan ədəbi dil lüğət tərkibində olan bəzi alınma sözlərin də yazı vasitəsilə danışığa köçürülən sözlərin, o cümlədən terminlərin və qısaltma sözlərin də tələffüzü əksərən yazı ilə əlaqədar olur və daha çox yazılışlarına müvafiq çalarlıqla tələffüz olunur.

**Ənənəvi və əcnəbi mənbələr.**

Ədəbi tələffüz normalarının müəyyənləşdirilməsində istifadə olunan mənbələrdən biri də ənənəvi və əcnəbi tələffüz normalarıdır.

Azərbaycan dili öz zənginliyi və müxtəlifliyi ilə tanınır. Bu dilin inkişafında dialektlər, şivələr, yazılı mənbələr və əcnəbi təsirlər mühüm rol oynayır. Lakin, bu amillərin hər biri ədəbi tələffüzün pozulmasına da səbəb ola bilər. Ədəbi tələffüzün normativ formaları, dilin müəyyən qaydalarına uyğun gəlməli olsa da, dilin müxtəlif formaları bu qaydaları bəzən pozur. Bu mühazirədə dialekt və şivələrin, yazı və əcnəbi mənbələrin ədəbi tələffüzə təsirini araşdıracağıq.

## 1. Dialektlər və şivələr

Azərbaycan dilində mövcud olan müxtəlif dialektlər dilin fonetik strukturlarını zənginləşdirir, amma bəzən bu zənginlik ədəbi tələffüzün pozulmasına səbəb ola bilər. Dialektlər, xüsusilə kəndlərdə və kiçik şəhərlərdə özünü daha çox göstərir. Dialektlərdə sözlərin, hərflərin və hecaların tələffüzü müxtəlif olur. Bu fərqliliklər bəzən ədəbi normaya uyğun gəlməz və nəticədə tələffüz səhvləri yaranır.

Dialektlər, xüsusən də qonaqların və şəhərdən uzaq yaşayanların istifadə etdiyi formalar, daha sonra geniş auditoriyaya yayıla bilər. Bu da zamanla ədəbi tələffüzün pozulmasına yol açır.

Azərbaycan dilindəki şivələr də ədəbi tələffüzə mənfi təsir göstərə bilər. Şivələr, bir regiondan digərinə keçən, lakin müəyyən ərazilərdə yaşayan insanların danışıq tərzini əks etdirən xüsusiyyətlərdir. Şivələrdə bəzi səslərin dəyişməsi və ya daha zəif tələffüz olunması ədəbi dilin normativ qaydalarına ziddir. Şivələr, məsələn, cənub bölgəsində "h" hərfini səsləndirməkdə çətinliklər yaradır və ya Şirvan şivəsində bəzi samitlərin çox qısa və ya uzadılaraq tələffüzü müşahidə olunur.

Şivələr həmçinin "r" və "l" səsinin qarışması kimi fenomenlərə səbəb ola bilər. Bu, ədəbi tələffüzün pozulmasına gətirib çıxarır.

## 2. Yazı

Yazılı dil ilə danışıq dili arasında müəyyən fərqlər mövcuddur. Yazılı dilin bəzi qaydaları, danışıq dilinə tam uyğun gəlmir. Bu, ədəbi tələffüzün pozulmasına gətirib çıxara bilər, çünki yazılı formada müəyyən səslər və ya sözlər düzgün tələffüz edilə bilmir. Məsələn, yazılı dildə "x" hərfi ilə yazılan sözlər bəzən danışıqda **"h"** kimi tələffüz edilə bilər.

Həmçinin, bəzi sözlərin yazılı forması ilə onların dialekt və şivələrdəki tələffüzü arasındakı fərq daha çox qeyd edilir. Məsələn, "ağıl" sözünün bəzi şivələrdə **"aqıl"** və ya "qız" sözünün **"qız"** deyil, **"kız"** kimi tələffüzü müşahidə edilir.

Yazılı normanın tətbiqi hər zaman doğru tələffüzü təmin etmir. Məsələn, Azərbaycan dilində bəzi sözlər birinci səsləndirilən formada yazılmasına baxmayaraq, ümumi tələffüzdə səhv tətbiq edilə bilər. Yazılı ədəbiyyatda tez-tez qarşılaşılan səhvlər ədəbi dilin tələffüzü ilə qarışır. Bəzən, səhv tələffüzlər mühafizəkar şəkildə qorunur və hər hansı bir islahata qarşı çıxılır.

## 3. Əcnəbi mənbələr

Azərbaycan dilinin inkişafında xarici dillərin təsiri çox böyükdür. Ən böyük təsir isə Rusiya və ingilis dillərindən gəlir. Bu dillərdən alınan sözlər və ifadələr bəzən düzgün tələffüz olunmur. Xarici dillərin fonetik xüsusiyyətləri, Azərbaycan dilinin fonetik quruluşuna uyğun gəlmir və bu, tələffüzdəki yanlışlıqlara səbəb olur.
Məsələn, **"computer"** (kompüter), **"manager"** (menecer), **"business"** (biznes) kimi sözlər Azərbaycan dilində əcnəbi dil qaydalarına uyğun şəkildə tələffüz olunur. Bu tələffüzlər Azərbaycan dilinin özünə məxsus fonetik qaydalarına uyğun gəlmir və buna görə də ədəbi tələffüzün pozulmasına gətirib çıxarır.
Əcnəbi kəlmələrin Azərbaycan dilinə daxil olması ilə, bu sözlərin fonetik strukturu dəyişir. Xarici dil qaydalarına uyğun olan sözlər zamanla Azərbaycan dilində fərqli şəkildə tələffüz olunur. Bu zaman ədəbi tələffüz pozulur və bu da dilin təbii inkişafına mənfi təsir göstərə bilər.

## Nəticə

Dialektlər, şivələr, yazılı mənbələr və əcnəbi təsirlər ədəbi tələffüzün pozulmasına səbəb olan mühüm amillərdir. Bu amillərin dilin inkişafında rolu olsa da, düzgün ədəbi tələffüzün qorunması və inkişafı üçün hər biri üzərində diqqət və nəzarət lazımdır. Təhsil və dilçilik elmi, ədəbi dilin düzgün tələffüzünün təbliği üçün vacib bir vəzifə daşıyır. Həmçinin, yazılı ədəbiyyat, media və ictimai tədbirlər vasitəsilə ədəbi tələffüzün qorunması vacibdir.

**Saitlər.** Azərbaycan ədəbi tələffüzünün əsasları baxımından sait səslərin orfoepik normalarının müəyyənləşdirilməsi birinci dərəcəli şərtlərdəndir. Saitlər dilin lüğət və qrammatik vahidlərini formalaşdırıb təzahür etdirən ən mühüm fonetik ünsürlərdir. Əsasən saitlərlə bağlı olan bir sıra qanunlarının məna və ahəngdarlıq baxımından, xüsusən şəkilçilərin yazılışında, həm də tələffüzündə çox mühüm rolu vardır.

**Samitlər.** Orfoepik normalar baxımından samitlərin tələffüzünün dəqiqləşdirilməsi də çox vacibdir. Samitlər dilin maddi əsasını təşkil edən ünsürlərdir. Buna görə samitlərin dəyişməsi dilin əsas vahidləri hesab olunan sözlərin dəyişməsinə səbəb olur. Məs: at. Ad, al, az, aş və s.

# Əlifba

Hər bir fonoqrafik yazıda işlədilən hərflərin cəminə və bunların müəyyən düzülüşünə əlifba deyilir.Əlifba termini ərəb əlifbasının birinci(əlif) və ikinci (ba) hərflərinin adlarının birləşməsindən əmələ gəlmişdir.

Əlifbalarda hərflərin düzülüşü yazının inkişafı tarixində müəyyənləşib,ümumqəbul vəziyyət almışdır.Lakin hərflərin əlifbadakı sırası şərti-ənənəvi öarakterdədir. Ümumiyyətlə, hərflərin əlifbada sıralanması problemi xüsusi qanunauyğunluğa tabe deyil və bu təsadüfi səciyyə daşıyır. Ona görə də dünya əlifbalarında hərflərin sırası bir-birinə uygun gəlmir. Sözdəki səslər hərflərlə göstəriləndən sonra əlifba meydana çıxmışdır. İlk dəfə olraq səsləri əks etdirən işarələr bizim eradan əvvəl misir yazısında əmələ gəlmişdir. Misirlilər ilk dəfə olaraq hərf yaratmalarına baxmayaraq sırf hərflı yazıdan istifadə edə bilməmişlər.Çünki yazıda hərflər heroqliflərlə qarışıq şəkildə işlənilmişdir.

Qədim Misir yazısı minoy yazısının inkişafına xüsusi təsir göstərmişdir. Misir və Minoy yazılarının təsirində qədim qərb sami xalqları bir sıra hərfi-səs əlifba yaratmışdır.Sami dillərin yazılarından ən çox intişar etmiş finikiya yazısıdır. Finikiyalıların dili qədim ərəb dilinə yaxın olmuşdur. Bu dildə sözlər ən çox samitlə başlanır. Cəmiyyət tarixində ilk səs-yazı sistemlərdən biri olan finikiya yazısında 22 hərf işlənilmişdir. Finikiyalılar istifadə etdikləri hərflərə əlifba sırası müəyyənləşdirmişlər. Həmin sıra sonradan yaranan əlifbalar üçün də əsas kimi qəbul edilmişdir.Finikiya əlifbasındakı hərflərin hər biri təbiətin canlı və cancız varlıqlarına bənzədilərək yaradılmışdır.

Yazı tarixçilərinin müəyyən etdiklərinə görə, finikiya əlifbası iki istiqamətdə yayılmışdır: a) şərq istiqamətində b) qərb istiqamətində

Şərqdə finikiya əlifbası əsasında ilk dəfə arami əlifbası meydana çıxmışdır.Şərqdə geniş şöhrət qazanmış arami yazısı əsasında sonralar bütün şərqin əlifbaları yaranmışdır. Alimlər həmin əlifbaları dörd budağa (qrupa) bölürlər:

a) Yəhudi budağı
b) Suriya budağı
c) İran budağı
d) Ərəb budağı

Bu əlifba budaqlarında ümumi cəhət ondan ibarətdir ki, bunlarda qədim finikiya əlifbasının sağdan-soldan yazılması və konsonantlıq prinsipi saxlanılmışdır. Arami mənşəli ərəb əlifbasının ən qədimi “kufi” yazı adlanır.Bu əlifba Kufə şəhərinin adı ilə bağlıdır.

Qədim ərəb əlifbasında hərflərin miqdarı az olmuş, sonradan bəzi hərflər artırılmışdır. Kufi əlifbasının inkişafı nəticəsində formalaşmış müasir ərəb əlifbasında 28 hərf vardır. Onların 3-ü uzun sait, 25-i isə samit işarəsidir.

Ərəb əlifbası qədimdən başlayaraq çox geniş yayılmışdır. Bu əlifbanın yayılmasına, əsasən, islam dini səbəb olmuşdur. Ərəb əlifbası əsrlər boyu türk dilli xalqlar arasında da əlaqə vasitəsi kimi işlənilmişdir. Azərbaycan yazısında da bu əlifbadan istifadə edilmişdir.

Qərbdə finikiya əlifbası əsasında qədim Yunan əlifbası əmələ gəlmişdir. Finikiya əlifbasını Avropaya filnikiyalılar aparmışlar. Yunanlar finikiya əlifbasını müəyyən dərəcədə təkmilləşdirmiş, ona sait səslər üçün işarələr əlavə etmişlər. Beləliklə yunan əlifbası öz konsonant mənşəyindən ayrılıb yeni tipli- vokallaşdırılmış əlifba kimi formalaşmışdır. Eyni zamanda yunanlar hərflərin yazılış istiqamətini də dəyişib soldan-sağa çevirmişlər. Bu əlifbada 24 hərf vardır. Yunan əlifbası müxtəlif variantlarda şaxələnmişdir. Buna görə də alimlər yunan əlifbasını iki qola bölürlər: a) qərbi yunan əlifbası  b) şərqi yunan əlifbası.

a) Qədim yunan əlifbasının qərb qoluna etrusuq əlifbasını da aid edənlər vardır. Etrusuqlar İtaliyanın qədim mədəni xalqı idi. Etrusq əlifbası bizim eradan əvvəl VIII əsrdə meydana çıxmışdır. Onlar yunanlardan aldıqları əlifbanı get-gedə öz dillərinin fonetik quruluşuna uyğunlaşdırmışlar. Etrusuq əlifbasının təsirindən latın əlifbası meydana çıxmışdır. Belə ki, eramızdan qabaq VII-VI əsrlərdə latın-roma yazısı meydan çıxmışdır. İlk latın əlifbasında 21 hərf olmuş, sonra 2 hərf artırılaraq klassik latın əlifbasında hərflərin miqdarı 23-ə çatdırılmışdır. Daha sonra latın əlifbasına bir neçə də hərf əlavə edilmiş, hərflərin sayı 26-ya qaldırılmışdır. Roma imperiyası dövründə romalılar tərəfindən ələ keçirilmiş ölkələrin xalqları latın əlifbasını qəbul etmişlər və beləliklə, bu əlifba Avropaya geniş yayılmışdır. Sonradan latın əlifbasından bir çox xalqlar da istifadə etməyə başlamışlar.Hazırda müasir ingilis, fransız, alman, türk, italyan və s. əlifbaların əsasını latın əlifbası təşkil edir.

   Latın əlifbasından Azərbaycan yazısında da istifadə olunmuşdur. 1922-ci ildə latın qrafikası əsasında qurulmuş əlifbadan 1940-cı ilədək istifadə edilmişdir.1992-ci ildən yenidən həmin əlifbaya qayıdılmışdır.

b) Qədim Yunan əlifbasının şərq qolu əsasında vizantiya əlifbası meydana çıxmışdır. Vizantiya yunan əsasında xristanlığı qəbul etmiş bir sıra xalqların əlifbaları əmələ gəlmişdir. Belə əlifbadan biri də Slavyan əlifbasıdır. Bu əlifba IX əsrin sonunda Bolqariyada yaradılmışdır.

Qədim slavyan əlifbasını yunan missionerləri olan Krill qardaşları düzəltmişdir. Kirill qardaşları yunan, latın, yəhudi, ərəb və slavyan dillərini bilirdilər. Bu keyfiyyətlərinə görə Vizantiya imperatoru Kirill qardaşlarını Bolqariyaya göndərmiş, Mefodi ilə birlikdə az müddət içərisində 3-4 dini kitab slavyan dilinə tərcümə olunmuşdur. Bünunla bərabər onlar həm də slavyanlar üçün əlifba da düzəltmişlər. Qədim slavyan əlifbası iki formada idi. Bunun biri Kirillisa, digəri isə qla qolisa adlanırdı. Kirillisa slavyanlar arasında daha tez və geniş yayılmışdır. Bu əlifba 43 hərfdən ibarətdir. Bunun 24-ü yunan əlifbasından götürülmüş, 19-u isə əlavə edilmişdir. Müasir rus əlifbası bu Kirill əlifbasından əmələ gətirilmişdir. Onun indiki vəziyyətinə qədər bir çox dəyişikliklər edilmişdir.

Hazırda dünya əhalisinin müxtəlif formalı hərf-səs yazılarında, təxminən 250 əlifbadan istifadə edilir. Bu əlifbaların hamısı zahiri cəhətdən bir-birinə oxşamır. Bunların bəziləri bir-birinə yaxındır, bəziləri isə tamamilə fərqlidir. Klassik əlifbalardan fərqli olaraq müasir əlifba bir neçə vacib tələbə cavab verməlidir. Həmin tələblər aşağıdakılardır:

1. Fonetik tələb. Əlifba dilin fonetik qurluşunu, fonemlərini yazıda əks etdirməlidir. Bu o demək deyildir ki, dildə nə qədər səs varsa , əlifbada da bir o qədər hərf olmalıdır. Məlum olduğu üzrə, hər bir dildə fonemlər və fonem variantları mövcuddur. Əlifba dilin bütün bu fonem səslərini və bunların çalarlıqlarını tam əks etdirirsə yazı mürəkkəb xarakter alıb istifadəsi çətinləşər. Ümumiyyətlə,dildə olan fonem-səslərin miqdarı qədər ideal fonoqrafik əlifba hesab edilir. Lakin belə əlifba yoxdur. Hərflərin miqdarının az olması müasir əlifbalar üçün xarakterik cəhətdir.
2. Qrafik və poliqrafik tələb. Bu tələbə görə hərflərin yazılışı sadə olmalıdır. Burada artıq xətlərə, müxtəlif diakritik işarələrə, bir səsi bildirmək üçün iki və çox işarəli hərfə yer verilməməlidir. Bütün bunlar yazının kağızda az yer tutmasına, başlıca cəhətlərdən olan qənaətə imkan yaradır. Müasir əlifbaların çoxunda bu tələbə xüsusi əhəmiyyət verilmişdir.
3. Estetik və kalliqrafik tələb. Əlifbanın hərflərinin zahiri cəhətdən gözəlliyi və zərifliyi də əsas şərtlərdən hesab olunur.
4. Pedaqoji və psixoloji tələb. Bu tələbə əsasən əlifbanın yazılışı və oxunuşu asn olmalıdır. Bunun üçün əlifbadakı hərflər dəqiq olmalı, biri digərindən tez seçilib fərqlənməlidir.

    Müasir dövrdə əlifba sistemlərindən üçü daha geniş yayılmışdır. Bunlardan biri latın əlifbası əsasında yaradılmış əlifba sistemidir. Bu

sistemdən indi Amerikanın, Avropanın, afrikanın və avstraliyanın ölkələrində istifadə olunur. Geniş yayılmış iknci əlifba sistemi slavyan-kirill qrafikası əsaında yaradılmış əlifbalardır. Bu sistemdən Avropa və Asiyanın bir çox xalqları istifadə edirlər. Nəhayət, geniş yayılmış sistemlərin üçüncüsü ərəb əlifbasıdır. ərəb əlifbalarından bütün ərəb ölkələrində, bundan əlavə İranda, Əfqanıstanda, Pakistanda istifadə olunur.

Müasir dünya ictimaiyyətini maraqlandıran problemlərdən biri beynəlxalq əlifba yaratmaqdır. Bu sahədə bir sıra mülahizə və əməli təkliflər meydana çıxmışdır, Qərbi ölkələrdə beynəlxalq əlifba sistemləri nümunələri tərtib edənlər də vardır. Lakin indiyə kimi biunların heç biri beynəlxalq əlifba kimi qəbul edilməmişdir. Beynəlxalq əlifba yaratmağa cəhd göstərənlərdən biri həmyerlimiz filoloq Məmmədov Əli Həmid oğlu Kürdüstanı olmuşdur. O. 1960-cı ildə bütün dünya dılləri üçün vahid yazı sistemi təklif etmişdir. Bu əlifba dildəki samit səsləri ifadə etmək üçün 7 işarədən, sait səsləri ifadə etmək üçün 2 işarədən ibarətdir. Ə. Kürdüstanı öz əlifbasını bir neçə beynəlxalq elmi məclislərdə nümayiş etdirilmişdir. Yeni əlifbanın üstünlüklərindən biri onun işarələrinin sayının az olmasıdır.

**Qeyd:** 1.Qədim milli türk əlifbalarından (qədimdən VII əsrin II yarısına qədər) 2. Ərəb qrafikalı əlifbadan ( VII əsrin II yarısından XX əsrin 1929-cu ilinədək) 3. Latın qrafikalı əlifbadan (1929-1939-cu illər) 4. Kiril qrafikalı əlifbadan (1940-1992-ci illər) 5. Yenidən latın qrafikası əsasında hazırlanmış tamamilə yeni əlifbadan (1992-ci ildən)

## Fonetik hadisə və qanunlar.

Nitq zamanı səslərin işlənmə yeri və bir-birilə qonşuluğu onaların bəzi dəyişikliklərə uğramasına səbəb olur. Bu və ya digər səsin tutduğu mövqedən asılı

olaraq və başqa səslərin təsiri ilə digər səslərlə əvəzlənmələri fonetik dəyişmə səbəb olunur. **Fonetik əvəzlənmələr iki cür olur: mövqeli (pozisiyalı) və əlaqəli (kombinator) əvəzlənmə**

Səs başqa səsin təsirindən asılı olmayaraq sözdə tutduğu mövqeyə görə dəyişilərsə, belə fonetik dəyişməyə mövqeli əvəzlənmə deyilir. Məsələn, biz kənd sözünü kənt kimi işlətdikdə d səsi t səsi ilə əvəz olunur. Bu əvəzlənmə yalnız d samitinin söz sonunda işlənməsindən irəli gəlir. Əlaqəli və yaxud kombinator əvəzləbnmədə isə bir səs digərinə təsir edərək, onun müxtəlif danışıq səsləri ilə əvəz olunmasına səbəb olur. Müxtəlif dillərdə kombinator dəyişmələrin müxtəlif növləri vardır ki, onlardan aşağıdakıları qeyd etmək olar: uyuşma (assimliyasiya), fərqləşmə (dissimlyasiya), yredəyişmə (metateza), səs artımı, səs düşümü və s. Bu hadisələrin hər biri özünəməxsus əlamətlərə malik olmasına baxmayaraq, sözün mənasına təsir edə bilmədiklərinə görə fonetik hadisə hesab olunur.

***Uyuşma.*** Uyuşma və yaxud assimilyasiya sözdə səslərin məxrəclərinə görə bir-birinə uyğunlaşmasına deyilir. Məsələn, tapmaq sözündə p səsinin özündən sonra gələn m səsini öz məxrəcinə uyğunlaşdırması uyuşma, yaxud assimilyasiya sayılır. Uyuşma tam və yarımçıq olur. Tam uyuşmada təsir edən səs təsir altına düşən səsi tamailə öz məxrəcinə uyğunşlaşdırır. Məsələn: Azərbaycan dilində tapmaq- tappaq, anlamaq-annamaq, adlar-addar və s. sözlərəd tam assimilyasiya hadisəsi vardır. Çünki tappaq, annamaq, addar sözlərində p, n, d səsləri özlərindən sonra gələn m,l səslərinə təsir edərək, onları öz cinslərinə və ya məxrəclərinə uyğunlaşdırmışdır. Burada d səsi özündən gələn t səsinə təsir edərək onun oddatь kimi tələffüz olunmasına səbəb olmuşdur.

Yarımçıq və ya tam olmayan assimilyasiyada təsir edən səs təsir altına düşən düşən səsi tamamilə deyil, qismən öz məxrəcinə yaxınlaşdırır. Başqa sözlə, desək, təsir altına düşən səs təsir edən səsi özünə deyil, məxrəcinə yaxın olan başqa bir səsə çevirir. Məsələn, Azərbaycan dilində atamdan şəklində yazılan söz atamnan kimi tələffüz olunur. Bu misalda m səsi d səsinə təsir edərək onu n səsinə çevirmişdir.

Uyuşma təsir istiqamətinə görə irəli və geri olur:

a) **İrəli uyuşma**da əvvəlki səs özündən sonra gələn səsə təsir edərək, onu öz məxrəcinə çevirir. Məsələn, tapmaq sözünün tappaq, danlamaq sözünün dannamaq şəklində tələffüz olunması kimi.
b) **Geri assimilyasiya** tələffüzdə özündən sonra gələn səsin təsiri nəticəsində ondan əvvəlki səsin həmin səsin məxrəcindən olan səsə çevrilməsinə deyilir.
   Dilimizdə alırlar şəklində yazılan söz danışıqda alıllar kimi tələffüz olunur. Burada, yəni alırlar sözündə işlədilən kəmiyyət şəkilçisinin ilk **l** səsi özündən

əvvəl gələn zaman şəkilçisinin **r** səsinə təsir edərək, onu **l** səsinə çevirmişdir. Azərbaycan dilində, ümumiyyətlə desək, r-l, t-s, s-c, n-m, ç-ş təsir edir. Məsələn, yazarlar-yazallar, getsə-gessə, rusca-rucca, dinməz-dimməz və s.

Uyuşma hadisəsi dildə qanunauyğun şəkildə fəaliyyət göstərən fonetik hadisə olub, müəyyən sistem təşkil edən samitlər arasında yaranır.

Uyuşma hadisəsi, adətən, üç əlamətə görə baş verir: 1) samitlərin yaranma yerinə görə 2) samitlərin yarnma üsuluna görə 3) səs tellərinin iştirakına görə.

*Fərqləşmə (dissimilyasiya).* Bu uyuşmanın tamamilə əksinədir. Əgər uyuşmada bir səs başqa səsə təsir edərək, onu öz məxrəcində olan və yaxud öz məxrəcinə yaxın bir səsə çevirirsə, burada eyni məxrəcdən olan və yaxud bir-birinə yaxın iki səsdən biri digərinə təsir edərək, onu öz məxrəcindən uzaqlaşdırır.

Azərbaycan dilində morfolji normaya çevrilmiş qaralmaq, saralmaq sözləri də mənşəcə fərqləşmə nəticəsidir (qararmaq, sararmaq və s.)

Səs düşümü. Dilin fonetik quruluşunda geniş yayılmış fonetik hadisələrdən biri də səs düşümüdür. Bu hadisə düşən səsin mövqeyindən və səciyyəsindən asılı olaraq müxtəli təzahür formasına malikdir: 1) absorbsiya 2) apokopa 3) aferezis 4) eliziya 5) sinkopa 6) reduksiya

Absopbsiya. Sonor samiertin yanındakı saitin itməsinə absopsiya deyilir. Məsələn, əsil-əsl, nəsil-nəsl

Apokopa. Söz sonundakı samit səsin və ya səslərin fonetik proseslər nəticəsində düşməsinə apokopa deyilir. Məsələn, Azərbaycan dilində xəbər şəkilçisinin üçüncü şəxs təkində düşməsi apokopa hadisəsinə misal oal bilər: tələbədir-tələbədi, müəllimdir-müəllimdi.

Aferezis. Sözün əvvəlindəki səsin və ya səslərin özündən əvvəl gələn sözün sonuncu səsinin təsiri ilə düşməsinə aferezis deyilir. Məsələn, Azərbaycan dilində dəftərlə- dəftər ilə, gəlirdi- gəlir idi, bilirmiş-bilir imiş və s.

Eliziya. Bu səs düşümü hadisəsi apokopa hadisəsinə oxşayır. Lakin apokopa hadisəsində samit səslər düşdüyü halda, eliziya hadisəsi zamanı sait səsləri itir. Məsələn, Azərbaycan dilində Əli ağa sözlərinin Əlağa, Əli Əkbər sözlərinin Ələkbər kimi deyilməsi eliziya hadisəsinə misal ola bilər.

Sinkopa. Söz içərisində, xüsusən kipləşən samitlər arasında səsin düşməsinə sinkopa deyilir. Məsələn, Azərbaycan dilinin müxtəlif şivələrində nəzərə çarpan cərmə (cərimə), ərzə (ərizə), telfon (telefon) deyilişləri sinkopa hadisəsinə misal ola bilər.

Reduksiya. Səsin zəifləməsi hadisəsinə reduksiya deyilir. Azərbaycan dilində vurğulu hecadan əvvəlki vurğusuz hecada işlənən bütün qapalı saitlər reduksiya hadisəsinə uğrayır: burun-burnun, sinif-sinfin və s.

Səs artımı. Dilin fonetik quruluşunda mühüm yer tutan fonetik hadisələrdən biri də səs artımıdır. Səs artımı 4 cür olur: 1) proteza 2) epenteza 3) epiteza 4) lyezon.

Proteza. Sözün əvvəlinə müxtəlif danışıq səsinin artırılmasına proteza deyilir. Məsələn, Azərbaycan dilində proteza hadisəsi sonor p samiti ilə başlanan sözlərə bəzi hallarda bir i saitinin artırılması ilə baş verir; rəhm- irəhm, rəng- irəng, Rəşid- İrəşid və s.

Epenteza. Söz daxilinə müxtəlif səslərin artırılamasına epenteza deyilir. Azərbaycan dilinə ərəb və ya fars dillərindən keçmiş bir çox sözlərlə yanaşı gələn iki sait arasına tələffüzdə artırılan samitlər bu hadisəyə misal ola bilər: ailə-ayilə, aid- ayid, nail- nayil və s.

Bundan başqa, Azərbaycan dilinə başqa dillərdən keçmiş sözlərin ortasında artırılan saitlər də epenteza hadisəsinə misal ola bilər: zəhər-zəhr, şəhər-şəhr və s.

Epiteza. Müəyyən fonetik və morfoloji şəraitlə əlaqədar olaraq söz sonuna artırılan səsə epenteza deyilir. Məsələn, məlum olduğu üzrə, Azərbaycan dilində iki sait yanaşı gələ bilmədiyindən saitlə bitən ismə saitlə başlayan şəkilçi artırıldıqda, sözün sonuna **y,n, s** samitlərindən biri əlavə edilir: alma- alma+y+a, alma+n+ı, alma+s+ ı

Lyezon. Saitlə qurturan sözlə saitlə başlayan sözün arasına səs artırılmasına lyezon deyilir. Məsələn, Yaşayış yollarında yəhərli atlı illər

Məlum olduğu üzrə, həmin misra tələffüzdə belə səslənir: Yaşayış yollarında yəhərli(y) atlı(y) illər. Belə fonetik hadisələr lyezon sayılır.

Səslərin yerdəyişməsi. Söz tərkibində səslərin qarşılıqlı surətdə öz yerlərini dəyişməsi hadisəsinə metateza deyilir. Məsələn, Azərbaycan dilində yarpaq-yapraq, kirpik-kiprik, çılpaq-çıplaq sözlərində metateza hadisəsi mövcuddur. **Metatezanın üç növü var: 1) kvantitativ metateza 2) məsaf əli metateza 3) sadə metateza**

Kvantitativ metateza adından göründüyü kimi, kəmiyyətə görə uzun və qısa saitlərin yerdəyişməsi hadisəsidir. Məsələn, Azərbaycan dilinin bəzi şivələrində mübtəda əvəzinə mübta:də, macəra əvəzinə məca:ra işlənməsini metatezanın bu növünə aid misal göstərmək olar.

Məsafəli metateza yanaşı olmayan səslərin yerdəyişmi nəzərdə tutulur. Məsələn, qarğıdalı-qardığalı, lənət-nələt, nəlbəki-lənbəki,layihə-lahiyə və s.

Sadə metateza hadisəsinə daha çox rast gəlinir. Bu hadisə yan-yana gələn səslərin yerdəyişməni nəzərdə tutur.

Yuxarıda, ümumiyyətlə, səsdəyişmi hadisəsinə göstərdiyimiz misallar (yapraq-yarpaq, kirpik-kiprik, çılpaq-çıplaq və s. ) sadə metateza nümunələridir.

## Heca

Heca nitq axını ilə əlaqədar olan mühüm fonetik vahidlərdəndir. Danışıq zamanı nitqin səslənmə keyfiyyətinə görə ayırlıdığı ən kiçik parçalara heca deyilir. Hecalar əsasən saitlər əsasında yaranır. Heca müxtəlif prinsiplərə görə, müxtəlif növlərə ayrılır. Hansı səslərlə, daha doğrusu, sait və yaxud samitlə qurtarmasından asılı olaraq, hecalar iki yerə bölünür: açıq hecalar, qapalı hecalar.

Saitlə qurtaran hecalara açıq, samitlə qurtaran hecalara isə qapalı hecalar deyilir. Məsələn, a-na, nə-nə-lə-rə sözlərindəki bütün hecalar açıq, əl-lər-dən sözündəki hecalar isə qapalı hecalardır.

Hansı səslərlə, daha doğrusu, sait və yaxud samitlə başlanmasından asılı olaraq hecalar yenə də iki qrupa ayrılır: örtülü hecalar, örtüsüz hecalar

Saitlə başlayan hecalara örtüsüz, samitlə başlayan hecalara isə örtülü hecalar deyilir. Məsələn, ev-də sözündəki ev hecası örtüsüz, də hecası isə örtülü hecadır.

Bu iki prinsipə, yəni hansı səslə başlayıb, hansı səslə qurtarmasından asılı olaraq, hecaları dörd qrupa ayırmaq olar:

1.Örtüsüz-açıq heca

2. Örtüsüz-qapalı heca

3. Örtülü-açıq heca

4. Örtülü-qapalı heca

Saitlə başlayıb saitlə qurtaran, yəni bir saitdən ibarət olan hecalara örtüsüz-açıq heca deyilir: a- na, a-ta

Saitlə başlayıb, samitlə qurtaran hecalara örtüsüz-qapalı hecalar deyilir: il, əl, ilk

Samitlə başlayıb, saitlə qurtaran hecalara örtülü- açıq hecalar deyilir:su, bu, ar-zu

Samitlə başlayıb, samitlə qurtaran hecalara örtülü-qapalı hecalar deyilir: dağ, qar-daş, dörd

Hecalar həmişə dilin fonetik qurluşu ilə bağlı olur. Bu həm hecalanmada, həm də hecanın növlərə ayrılmasında özünü göstərir.

# Dilçiliyin şöbələri.

Dilçilik elminin şöbələri, onların müəyyənləşdirilməsi müasir dilçiliyin ən vacib problemlərindəndir. Bu problem dilçiliyin tarixində hələ çoxdan özünə yer tapmışdır.XIX əsr dilçilərindən A.F. Brenqradi dilçiliyin tərkibini aşağıdakı şöbələrə bölmüşdür: fonetika,etimologiya, sözyaratma, morfologiya, söz birləşmələri və sintaksis. XX əsr dilçiliyində, Azərbaycan elmində də şöbə problemi diqqət mərkəzində olmuşdur.

Dilçiliyin şöbələri yaranma tarixinə görə təbii olaraq bir-birindən fərqlənir. Bəzi şöbələrin tarixi qədim olduğu halda, bəzi şöbələr çox cavandır. Məsələn, etimologiya keçmişdən formalaşmağa başlamışdır, frazeologiyanın tarixi müasir zamandan başlamışdır.

*Nəzəri dilçiliyin başlıca şöbələri.* Nəzəri dilçiliyin əsrlər boyu inkişafı əsasında onun bir sıra şöbələri yaranıb müəyyənləşmişdir. Onun şöbələri təxminən aşağıdakılardır: fonetika, leksikologiya, onomalogiya, frazeologiya, semasiologiya, etimologiya, derivatologiya, morfologiya, sintaksis.

Bu şöbələrin hər birinin özünə aid mövzusu, məqsədi və tarixi vardır.

*Fonetika şöbəsi*. Dilin səs sistemindən bəhs edən dilçilik şöbəsi fonetika adlanır. Fonetika termini yunan mənşəlidir. Yunan dilində fone (səs) deməkdir. Fonetiknın yaranma tarixi çox qədimdir. “Fonetika” anlayışı hələ eradan əvvəl hind dilçiliyində təşəkkül tapmışdır. Şikşa adlanan vedanq əsasən vedalardakı fonetika məsələlərinə həsr olunmuşdur. Bizim eradan əvvəl hind dilçiləri Panini IV əsrdə, Vararuçi Katyayana III

əsrdə fonetika məsələlərini öz əsərlərində ətraflı və dəqiq işləmişlər. Hindlilər dilin səslərini daha çox fizoloji cəhətdən təsvir etmişlər.

Eramızdan əvvəl II və I əsrlərdə yunan alimləri də sait və samitləri bir- birindən fərqləndirilmiş, səslərin daha çox akustik təsvirini verməyə çalışmışlar. Fonetika məsələləri ilə bizim eranın IV və XII əsrlərində Çin alimləri daha çox məşğul olmuşlar. Çin dilçiləri fonetika hadisələrin tarixi inkişafını öyrənmişlər. Bununla da onlar tarixi fonetikanın əssaını qoymuşlar. Çin dilinin tarixi fonetikası U. Yuyun fəaliyyəti ilə bağlıdır.

VII- X əsrlərdə ərəb dilçiləri səslərin məxrəcini, variantlarını, hətta musiqisinə görə növlərini belə öyrənə bilmişlər. Ona görə də tarixi- müqayisəli metodun banisi Frans Bopp əldə etdiyi öz elmi nəticələrində ərəb dilçiliyinə borclu olduğunu göstərmişdir.

XIX əsrdə də fonetika məsələlərinə dair bir çox xüsusi əsərlər meydana gəlmişdir. Fonetikaya aid aparılmış bütün tədqiqatlar müşahidə metoduna əsaslanmışdır. Məlumdur ki, şəxsi müşahidə dilin səs səs variantlarını olduğu kimi qeydə alıb tədqiq etməyə lazımi imkan yaratmır. Bunun üçün də dilçilər yeni metod axtarmış və eksperimintə xüsusi meyl göstərmişlər. Ona görə eksperiment əsasında aparılan tədqiqat işləri eksperimental fonetika adlandırılmışdır. Eksperimental fonetik tədqiqatla Fransada Jan Pyer Russlo məşğul olmuşdur. O, Qərbi Avropada eksperimental fonetikanın banisi hesab edilir. Dillərin fonoloji sisteminin öyrənilməsində tətbiq olunan eksperimental tədqiqat metodu get-gedə təkmilləşmiş və inkişaf etdirilmişdir.

Müasir fonetikanın məzmununu təşkil edən başlıca məsələlər aşağıdakılardır:

1. Səs və fonem anlayışı. Danışıq səsləri və fonem anlayışlarının bir-birindən fərqli və oxşar cəhətləri, fonem anlayışının konkret izahına dair dünya dilçiliyində çox müxtəlif fikirlər irəli sürülmüşdür. Bu sahədə Boduen de Kurtene, L. V.Şerba, A.A Reformattskinin fikirləri daha maraqlı elmi nəticələr vermişdir. L.V.Şerba ilk dəfə olaraq fonemin əsl real təbiətini açmağa nail olmuşdur. O. göstərir ki, səslərdən fərqli olaraq fonem mənaları fərqləndirməyə xidmət edir.
2. Fonemlər sistemi. Dünya dillərini bir-birini fərqləndirən əsas elementlərdən biri və başlıcası fonemlər sistemidir. Hər bir dilin özünəməxsus fonemlər sistemi vardır. Dünya dilləri sait və samit sistemlərin kəmiyyət və keyfiyyətinə görə bir-birindən fərqlidir.
3. Fonemin zəif və qüvvətli mövqeyi. Tələffüz prosesində sait və samit fonemlərin fizoloji- akustik keyfiyyətcə öz mövqeyini saxlaması və ya itməsi kimi fonetik hadisə mövcuddur.

4. Fonem variantları. Fonem variantları danışıq səslərinin müxtəlif morflemləri bir-birindən fərqləndirə bilməyən növüdür.
5. Heca
6. Heca tipləri
7. Vurğu.
8. Vurğunun növləri.

*Leksikologiya şöbəsı*- Dilin leksik sistemini öyrənən şöbəyə leksikologiya deyilir. Leksikologiya termini yunan mənşəlidir.

Onomalogiya şöbəsi- Dildəki xüsusi adların məcmusu onomastika, ondan bəhs edən dilçilik şöbəsi isə onomalogiya adlanır.

Semasiologiya şöbəsi- Semasiologiya dilin semantik sistemi haqqında linqvistik təlimdir. Semasiologiya termini yunan mənşəli olub, məna, fikir anlayışını bildirir. Dildə söz və ifadənin mənası, mənanın dəyişməsi- mənanın genişlənməsi, daralması, sözün məcazi məna bildirməsi, çoxmənalılıq, omonimlik, antonimlik və sair kimi semasioloji məsələlərin tədqiqi semasiologiya sahəsinin mövzusunu təşkil edir. Semantika məsələsinə dair dərin tədqiqatlar aparmış olan alman alimi Karl Rayziq 1820- ci ildə semasiologiyanı dilçiliyin müstəqil şöbəsi kimi ayırmış və bu şöbənin məqsəd və vəzifələrini müəyyənləşdirməyə səy etmişdir. Semasiologiyanın bir şöbə kimi müstəqilləşməsində fransız dilçisi Mişel Brealın xüsusi xidmətləri olmuşdur. Onun bəzi alimlər tərəfindən linqvistik semantikanın atası hesab edilməsi heç də təsadüfi deyil.

Frazeologiya şöbəsi- Dildəki sabit söz birləşmələri, ifadə və ibarələrdən bəhs edən dilçilik şöbəsi frazeologiya adlanır.

XX əsrin əvvəllərində frazeologiya məsələləri ilə ilk dəfə ətraflı şəkildə Şarl Balli məşgul olmuşdur. O, dilçiliyin tarixində birinci olraq frazeologiyanı leksikologiyanın müstəqil şöbəsi kimi müəyyənləşdirmişdir.

*Etimologiya şöbəsi*- sözün mənşəyini öyrənən şöbəyə etimologiya deyilir. Başqa sözlə, bu şöbə leksik vahidlərin əmələ gəlməsi və inkişaf tarixi ilə məşğul olur.

*Derivatologiya şöbəsi*- Bu şöbə dildə yeni sözlərin necə düzəldildiyinin aydınlaşdırılması ilə məşğul olur. Derivatologiya müstaqil dilçilk şöbəsi kimi çox gənc hesab olunur.

*Morfologiya şöbəsi*- Morfologiya termini forma və təlim mənalarınəı bildirən iki yunan sözündən əmələ gəlmişdir. Morfologiya şöbəsinin məqsədi sözün formasını hərtərəfli və dərindən öyrənməkdən ibarətdir.

*Sintaksis şöbəsi*- Dilçilikdə dilin sintaktik sistemindən bəhs edən şöbə sintaksis adlanır. Sintaksis termini yunan mənşəli olub "tərtib edilmə" mənasını bildirir. Sintaksis anlayışı dil haqqında elmə hələ eramızdan əvvəl qədim hind alimləri tərəfindən daxil edilmişdir.Lakin qədim dövrdə və istərsə də orta əsrlərdə sintaksis xüsusi tədqiqat obyekti olmamış, bu şöbənin mövzusu başqa dil məsələlərinə qarışdırılmışdır.Sintaksis priblemləri XIX əsrdə geniş şəkildə tədqiqat obyektinə çevrilmişdir. Rus dilçilərindən A.Vostokovun, N.Qreçin, F. Fortunatovun, A. Şaxmatovun, A. Peşkovskinin və başqalarının əsərlərində sintaksisə dair bir sıra fərqli fikirlər irəli sürülmüşdür. XIX əsrdə türk dillərinin sintaksisini tədqiq etməyə də müəyyən maraq göstərilmişdir. Görkəmli Azərbaycan alimi M. A. Kazım bəy öz əsrlərində dilimizin sintaktik sisteminin şərhinə xüsusi yer vermişdir.

*Tətbiqi dilçiliyin əsas şöbələri.* Tətbiqi dilçiliyin bir sıra şöbələri formalaşmışdır. Bunlardan ən başlıcaları aşağıdakılardır: qrafika, orfoqrafiya, orfoepiya, leksikoqrafiya və linqvo-tərcüməşünaslıq

*Qrafika şöbəsi*- Dilçilikdə qrafika dil haqqında elmin bir şöbəsi olub, yazıda istifadə olunan xətlərin yazılması formaları, bu və ya digər hərfin hansı səsi, yaxud səsləri bildirməsi, necə oxunması və sair məsələlər aydınlaşdırılır. Dilçilik qrafikasının tarixi XIX əsrdən başlayır. Qrafika şöbəsi iki hissədən ibarətdir: a) yazıdakı xətlərin məcmusunun xarakteristikası b) hərflərlə səslərin münasibəti.

Yazıdakı xətlərin miqdarı, məcmusu dedikdə hərflərin vurğu və durğu işarələrinin formaları, həcmi, quruluşu nəzərdə tutulur. Mövcud fonoqrafik yazılardakı hərflər ölçülərinə, quruluş və formasına görə fərqlənir. Lap qədim fonoqrafik yazılarda hərflərin bir yazılışı vardır. Lakin yazının tarixi inkişafı ilə əlaqədar bir sıra yazılarda hərflərin yazılışı əmələ gəlib formalaşmışdır. Əlifbaların çoxunda hərflər ölçülərinə ggrə iki qrupa bölünür: böyuk hərflər, kiçik hərflər. Böyük hərflərə, eyni zamanda, baş hərflər də deyilir. Müasir yazılarda böyük hərflərin işlənmə yeri, vəzifəsi müəyyənləşdirilmişdir: abzasın, cümlənin əvvəlində, abreviaturların (ADU,APU, BDU), şüarların, lövhələrin, başlıqların, xüsusi isimlərin yazılışında böyük hərflərdən istifadə olunur. Kiçik hərflərə sətri hərflər də deyilir. Sətri hərflər, əsasən, böyük hərflərdən əmələ gəlmişdir. Yazıda kiçik hərflərdən istofadə qaydası oxu və yazı işinin sürətini artırmaq zərurəti əsasında yaranmışdır. Fonoqrafik yazılarda işlənən hərflər quruluşularına görə iki yerə bölünür: sadə hərflər, mürəkkəb hərflər.

Adətən sadə ünsür və ya ünsürlərdən əmələ gəlmiş hərflər sadə qurluşlu hərf adlanır. Məsələn, l,s,o hərfləri öz zahiri görünüşlərinə və ünsürlərin asanlığına görə sadədir. Belə sadə hərflər dünya əlifbalarının hamısında vardır. Əlifbalarda mürəkkəb quruluşa

malik hərflər də çoxdur. Belə hərflər iki yerə bölünür: a) liqatur hərflər b) diakretik işarəli hərflər.

Liqatur hərflər. Mənşəcə latın dilinə məxsus olan liqare sözü həmin dildə bitişmək, əlaqələnmək mənasını bildirir. Dilçilikdə liqatur termini ilə adlandırılan hərflər iki və daha artıq hərfin yanaşması və ya bitişməsi ilə bir sısi bildirmək üçün müəyyənləşdirilmiş qrafemlər- hərflərdir. Liqaturlar iki cür olur: a) qovuşma liqaturlar b) yanaşma liqaturlar.

Bir hərfin başqa bir hərflə bitişdirilməsi əsasında əmələ gətirilmiş hərflər qovuşma liqaturlardır. Məsələn, türk dillərindən altay və yakut əlifbalarında "sağır nun" səsini bildirmək üçün N və Q samitlərinin birləşməsindən əmələ gələn hərf belə liqaturlardandır.

İki və daha artıq hərfin vasitəsi ilə bir səsi bildirmək üçün işlədilən hərflər yanaşma liqaturdur. Məsələn, alman yazısında "sch" hərflər yanaşması [ş] səsinin yazıdakı işarəsidir.

Əlifbadakı bu və ya digər hərfin altında, üstündə, yaxud da ortasında qoyulub başqa bir fonemi bildirmək üçün istifadə olunan işarələrə dilçilik elmində diakretik işarə deyilir. Məsələn, azərbaycan əlifbasının çap formasında s hərfindən ş, c hərfindən ç, g hərfindən ğ diakretik işarə ilə düzəlmişdir. Hərfin iki forması vardır. Bunlardan biri az əlyazması, digəri isə çap formasıdır. Bütün əlifbalarda hərflərin sayı dildəki səslərin sayından az olur. Hərflər ifadə etdikləri səsə görə iki yreə bölünür: a) bir səsi bildirən hərflər b) iki və daha artıq səsi ifadə edən hərflər.

*Orfoqrafiya şöbəsi*- Tətbiqi dilçiliyin şöbələrindən biri də orfoqrafiyadır. Orfoqrafiya termini yunan mənşəli olub, düzgün yazıram deməkdir. Orfoqrafiya yazılı ədbi dilin sabitləşməsinə, fikirlərin aydın ifadə edilməsinə imkan yaradır, yazıda anlaşılmazlığa yol vermir. Orfoqrafiyanı təşkil edən qaydalar müəyyən orfoqrafik prinsiplərə əsaslanır. Fonoqrafik yazılarda istifadə olunan orfoqrafik prinsiplər çoxdur. Məsələn, ixtisar olunmuş sözlərin yazılışında aşağıdakı prinsiplərdən istifadə edilir: 1. İnisial prinsipi – sözün ancaq ilk hərfinin yazılmasına deyilir. Məs: q (qəpik), c (cild), m (manat) və s. 2. Suspenziya prinsipi- sözün yalnız bircə hərfi deyil, onun bir hissəsinin yazılması prinsipinə deyilir. 3. Kontraksiya prinsipi- Sözün ortasından hərfləri ixtisar edərək yazmaq prinsipinə deyilir: f-ka (fabrika), d-r (doktor), z-d (zavod). Bu prinsiplər əsas orfoqrafik prinsip sayılmır. Əsas orfoqrafik prinsip üçün xüsusi meyar vardır. Həmin meyara görə orfoqrafik prinsip geniş əhatəli olmalı və bir neçə dilin yazısında az və ya çox dərəcədə öz əksini tapmalıdır. Orfoqrafiyanın əsas prinsipləri aşağıdakılardır: fonetik prinsip- müasir ədəbi tələffüzə müvafiq yazmaq fonetik prinsip adlanır. Bu prinsipə görə söz eşidildiyi kimi də yazılır. Morfoloji prinsip- müxtəlif

şəkildə tələffüz olunan morfemlərin bir formada yazılması dilçilikdə morfoloji prinsip adlanır. Ənənəvi prinsip-bəzi yazılarda sözlərin yazılışı tələffüz olunduğu formadan çox fərqlənir. Keçmişdəki tələffüzə əsaslanan yazı prinsipi ənənəvi, yaxud tarixi-ənənəvi prinsip adlanır. Məsələn, bizim yazımızda əlbəttə və hətta sözləri ənənəvi prinsipə uyğun yazılır. Müəyyən bir orfoqrafiyada ən çox istifadə olunan prinsip aparıcı prinsip adlanır. Məsələn, Azərbaycan orfoqrafiyasının aparıcı prinsipi fonetik, rus orfoqrafiyasındakı morfoloji prinsip hesab olunur. Aparıcı prinsiplər daimi və stabil deyil. Belə ki, bu və ya başqa yazıdakı aparıcı prinsipi müəyyən dövrdən sonra başqa prinsip əvəz edə bilir.

*Orfoepiya şöbəsi*- Ədəbi normalar həm yazılı, həm də şifahi nitqə məxsus olur. Şifahi ədəbi dilin normaları əsasında mövcud olan orfoepik qaydaların sisteminə orfoepiya deyilir. Orfoepiya termini yunan mənşəli olub, düzgün tələffüz mənasını bildirir.

Müasir ədəbi dillərdən hər birinin orfoepik sistemi aşağıdakı bölmələrdən ibarətdir: 1.Saitlərin tələffüzünə aid qaydalar. 2.Samitlərin tələffüzünə aid qaydalar.3. Qrammatik formaların tələffüzünə aid qaydalar. 4. Əcnəbi sözlərin tələffüzünə aid qaydalar. Ədəbi dilin orfoepik sistemini təşkil edən qaydalar tədricən müəyyənləşib formalaşmışdır.

*Leksikoqrafiya şöbəsi*- Dilçilikdə lüğət işlərinin əməli və nəzəri problemlərindən bəhs edən şöbə leksikoqrafiya adlanır. Mənşəcə yunan sözü olan leksikoqrafiya terminin mənası "lüğət yazıram" deməkdir. Leksikoqrafiya dilçiliyin ən qədim şöbələrindəndir. Eradan əvvəl VI əsrdə hind dilçisi Amara sanskrit dilinin sözlərindən lügət yaradılmışdır. Hindlilər həmin lüğəti "Amarakoşa" adlandırmışlar ki, bunun da mənası "Amaranın lüğəti" deməkdir. Yenə də Hindistanda eradan əvvəl V əsrdə dilçi alim yaska böyük leksikoqrafiya işləri aparmışdır. Lüğətlər iki böyük tipə bölünür: enskilopedik lüğətlər, linqvistik lüğətlər.

Ensikilopedik lüğətlərdə müəyyən əşya, hadisə və ya anlayış geniş şərh edilir: tarixi şəxsiyyətlərə dair elmi məlumatlar verilir, onların fəaliyyətindən yığcam bəjs olunur. Ensiklopedik lüğətlərin iki növü vardır: ümumi ensiklopedik lüğətlər və sahə ensiklopedik lüğətlər.

Linqvistik lüğətlərdə sözlər şərh edilir. Bu tip lüğətlərdə söz və ifadələrin mənşəyi, inkişaf tarixi, qrammatik cəhətləri, nitqdə işlənməsi aydınlaşdırılır, sözün mənası izah olunur, onun düzgün yazılış və tələffüz qaydaları göstərilir.

*Linqvotərcüməşünaslıq şöbəsi*- Dilçiliyin tərcüməşünaslıq şöbəsi nitq fəaliyyətinin bir növü olan tərcümə haqqında dilçilik təlimidir. Müxtəlif forma və məzmunda olan materialların tərcüməsi ilə əlaqədar tərcümənin iki böyük növü vardır: bədii tərcümə-onun problemi ilə ədəbiyyatşünaslıq elmi məşğul olur. Tərcüməşünaslığın digər növü

informativ tərcümədir. Buraya elmi, rəsmi, ictimai-publisistik, kargüzarlıq və sair materialların tərcüməsi daxil edilir. Tərcümənin bu növü ilə dilşünaslıq elmi məşğul olur.

## Müasir Azərbaycan dilinin fonetikası

## Plan:

1. Fonetikanın predmeti və vəzifələri.
2. Fonetikanın növləri: a)Akustik fonetika. b)Fizioloji fonetika. c)Sosioloji fonetika. Ümumi fonetika. Təsviri fonetika. Tarixi fonetika. Təcrübi fonetika. Sintaqmatika fonetika.
3. Danışıq səsinin ucalığı. Danışıq səsinin gücü. Danışıq səsinin uzunluğu. Danışıq səsinin tembiri.
4. Danışıq üzvləri.

Ədəbiyyat:


- Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı, Maarif, 1980
- Babayev A. Dilçiliyə giriş. Bakı, Maarif, 2004
- Axundov A. Azərbaycan dilinin fonetikası. Bakı: Maarif, 2007
- Yusifov M. Azərbaycan dili fonetikasının əsasları.Bakı, “Elm və təhsil”, 2012 http://anl.az/el/Kitab/Azf-270697.pdf


Dilin səs tərkibini öyrənən dilçilk şöbəsinə **fonetika** deyilir. Fonetika yunan sözü olub, səs haqqında elm deməkdir. Fonetikanın müxtəlif növləri vardır. Bunlar aşağıdakılardan ibarətdir:

1. **Akustik** fonetika danışıq səslərinin fiziki xassələrindən, onların səslənməsindən-tonundan, tembrindən və s. bəhs edir.

2. **Fizioloji fonetika** səslərin əmələ əmələ gəlməsində iştirak edən üzvləri, bu və ya digər üzvləri, bu və ya digər səsin tələffüzü zamanı onların aldığı vəziyyəti və s. öyrənir.
3. **Sosioloji fonetika** və yaxud fonologiya danışıq səslərinin ictimai mahiyyətindən, onların vəzifəsindən, insanlar arasında ünsiyyət vasitəsi olmasından və s. bəhs edir

Fonetikanın bu üç növü bir-biri ilə əlaqəli surətdə dilin səs tərkibini-fonetik quruluşunu, xüsusilə fonemlər sistemini öyrənir.

Fonetikanın bu növləri əslində, fonetikanın tədqiqat aspektlərini təşkil edir. **İşləndiyi sahəyə və tədqiqat üsuluna görə də fonetikanın müxtəlif növləri** vardır. Onlardan ümumi fonetika, təsviri fonetika, tarixi fonetika, müqayisəli fonetika, təcrübi fonetika növlərini xüsusilə qeyd etmək olar.

*Ümumi fonetika*, adından göründüyü kimi, fonetikanın ümumi məsələlərindən, nitq cihazının səs imkanlarından və müxtəlif dillərdə səs quruluşunun müxtəlif təzahür formalarından bəhs edir. "Diliçiliyə giriş" kursundakı fonetika ümumi fonetikaya aiddir.

*Təsviri fonetika* ayrı-ayrı dillərin sinxron planda öyrənilməsi ilə məşğul olur. "Bu və ya digər konkret bir dilin müasir səviyyədə malik olduğu səs tərkibini, səs qanunlarını və müəyyən şəraitdən asılı olaraq fonetik dəyişmələrin qanunauyğunluğunu aydınlaşdırmaq, təsbit etmək və bunlara əməli nəticə çıxarmaq təsviri fonetikanın mövzusunu və məqsədini təşkil edir"

*Tarixi fonetika* dilin səs quruluşunun inkişafını və sabitləşməsini tədqiq edir. "İnkişaf tarixi boyu müəyyən dilin səs tərkibində, fonetik qanun və qaydalarında baş vermiş dəyişmələri öyrənib, həmin dilin fonetik sisteminin inkişaf tarixini müəyyənləşdirmək tarixi fonetikanın mövzu və məqsədini təşkil edir."

Fonetikanın növləri içərisində *müqayisəli fonetika* xüsusi yer tutur. Fonetikanın bu növü müxtəlif dillərin fonetik quruluşlarını tutuşdurma, qarşı-qarşıya qoyma yolu ilə öyrənir. Müqayisəli fonetika, əsasən iki məqsəd daşıyır: qohum dillərin səs tərkibini öyrənən müqayisəli fonetika həmin dillərin tarixi fonetikasına, qohum olmayan dillərin səs tərkibini öyrənən müqayisəli fonetika isə həmin dillərin tədrisi metodikasına xidmət göstərir.

Elmin və texnikanın sürətli inkişafı ilə əlaqədar olaraq yaranan və son vaxtlar böyük inkişaf yoluna çıxan *təcrübi fonetika* fonetikanın praktik və nəzəri əhəmiyyət kəsb edən növlərindən biridir. Təcrübi fonetika hər hansı birdilin səs quruluşunu cihazlar vasitəsilə öyrənir.

*Sintaqmatik fonetika* əslində təsviri fonetikanın ikincı əsas bölməsi sayıla bilər. Sintaqmatik fonetika nitqi, onun sintaqmlara parçalanmasını, danışanın öz nitqinə münasibətinin fonetik imkanlarını öyrənir. Sintaqmatik fonetika qrammatikanın bir şöbəsi olan sintaksislə qırılmaz surətdə bağlıdır.

## Səslərin akustikası

Hər hansı bir səs elastik cismin titrəməsi və hava dalğalarının axını nəticəsində əmələ gəlir. Bu dalğalar havada bir- birinin ardınca hərəkət edir və eşitmə üzvü vasitəsilə eşidilir. Dalğalar forma və xarakterinə görə səslər üç yerə ayrılır: 1) səs zərbləri 2) gurultular 3) musiqili səslər və ya tonlar

Səs zərbələri hər hansı bir atəş, partlayış və ya hər hansı ağır cismin zərbəsindən çıxan səslərdir. Gurultular ardıcıl olmayan və tez-tez baş verən zəif zərbələrdən ibarətdir. Ağac yarpaqlarında küləyin xışıltısı, hər hansı bir metalın cingiltisi və s. səslər buna misal ola bilər. Musiqli səslər və ya tonlar isə hava axının ardıcıl olaraq ahəngdar surətdə rəqs etməsi nəticəsində əmələ gəlir. Musiqi alətlərinin, xanəndələrin və s. çıxardağı səslər buna misal ola bilər.

Hər hansı bir cisim səslənərsə, hava dalğaları rəqs edir, onun rəqsi isə yaxındakı hava hissəciklərinə verilir, bunlar da rəqsə gəlib öz rəqslərini qonşu hissəciklərə və s. ötürür ki, bunun nəticəsində də havada səs dalğaları əmələ gəlir ki və yayılır. Səsə mühitə yayılaraq mənbədən uzaqlaşdıqca zəifləyir.

Danışıq səsləri, ümumiyyətlə, müxtəlif səslərdən ibarətdir. Bu səslərin mənbəyini də səs tellərinin titrəməsi təşkil edir. **Danışıq səslərinin akustik xüsusiyyətləri onların yüksəkliyi, qüvvəsi, uzunluğu və tembrindən ibarətdir**.

1. *Danışıq səsinin ucalığı.* Səsin ucalığı müəyyən zaman vahidinə rəqsetmənin sayı ilə düz mütənasib olan akustik vahiddir. Səsin ucalığı, bir qayda, olaraq, hers ilə ölçülür. Səsin ucalığı eyni zamanda səs verən cismin kütləsi və elastikliyi ilə bağlıdır. Belə ki, kütlə və elastiklik çox olduqca səsin ucalığı azalır. Deməli, səsin ucalığı cismin kütləsi və elastikliyinin az olması ilə tərs mütənasibdir.

2. *Danışıq səsinin gücü.* Səsin gücü birinci növbədə amplitudadan asılıdır. Amplituda- rəqs edən cismin tarazlıq vəziyyətindən ən çox uzaqlaşdığı nöqtələr arasındakı məsafədir. Başqa sözlə, amplitudanın kvadratı nə qədər böyük olsa, səsni gücü də bir o qədər artıq olur.
   Şübhəsiz, səsin gücünə atmosfer təzyiqinin, rütubət dərəcəsinin, habelə hava istiliyinin də təsiri də vardır.
3. *Danışıq səsinin uzunluğu.* Səsin uzunluğu onun yaranmasına sərf olunan vaxta görə müəyyən olunur. Məlum olduğu üzrə, hər bir səsin özünəməxsus uzunluğu və yaxud davamlığı mövcuddur ki, bu da həmin səsin ucalığından, gücündən və s. asılı deyildir.
4. *Danışıq səsinin tembri.* Bu səsin elə bir keyfiyyətidir ki, onu vasitəsilə səslərin ucalığından, gücündən, uzunluğundan asılı olmayaraq, onalrı bir-birindən fərqləndirirlər. Məsələn, a və ı səslərini eyni ucalıqda, eyni gücdə və eyni ucalıqda tələffüz etmək olar. Lakin onlar yenə də bir- birindən fərqlənəcəklər. Səsin biu keyfiyyətinə və ya onun özünəməxsus rəngarəngliyinə səsin tembri deyilir. Səsin bu mürəkkəbliyindəki ən alçaq ton əsas ton adlanır. Iki, üç, dörd qat və s. kimi böyük tezliklərə malik sadə tonlar isə yüksək harmonik tonlar və ya obertonlar adlanır.
   Əsas tona nə qədər çox oberton qarışarsa, bu obertonların hər birinin gücündən asılı olaraq səsin tembri də bir o qədər dolğun, ahəngdar və müxtəlif olar.

## Danışıq səslərinin fiziologiyası

Danışıq səsləri ünsiyyət vasitəsi olan dilin varlığının təşkil edir. səs olmadan heç bir dili təsəvvür etmək mümkün deyil və mümkün ola bilməz. Deməli, danışıq səsləri dilin maddi materiyasıdır. Hər bir səsin yaranması üçün material qəbul etdiyi hava axınıdır. Belə ki, ağ ciyərə dolmuş hava axını əvvəlcə nəfəs borusuna və oradan da ağız və burun boşluqlarına daxil olur, beləliklə, məqsəddən asılı olaraq bu və ya başqa səs tələffüz edilir.

Dildəki hər bir insanın danışıq üzvləri vasitəsi ilə əmələ gəlir. Buna görə də səsin necə yarandığını dərk etmək üçün danışıq üzvlərini bilmək, onalrın fəaliyyəti ilə tanış olmaq zəruridir.

Danışıq səslərin əmələ gəlməsində iştirak edən üzvlərə danışıq üzvləri deyilir. Bütün danışıq üzvlərinin cəmi danışıq cihazı adlanır.

Səslərin yaranmasında iştirak edən danışıq üzvləri bunlardır: 1)ağciyərlər; 2) bronxlar 3) nəfəs borusu 4) qırtlaq(xirtdək) 5) səs telləri 6) udlaq boşluğu 7) ağız boşluğu 8) dil 9) dişlər 10) yuvaqlar 11) damaq 12) dilçək 13) burun boşluğu 14) doddaqlar 15) alt çənə 16) əsəb sistemi

Səsin əmələ gəlməsində danışıq üzvləri müxtəlif vəzifə daşıyır. Buna görə də onalar iki yerə bölünür: idarə edən, icra edən.

Əsəb sistemi bütün danışıq üzvlərini idarə edir. Əsəb sisteminin- beyinin fəaliyyətdən düşməsi nəticəsində digər də danışıq üzvləri anormal vəziyyət alır.

Əsəb sistemindən başqa. yerdə qalan bütün üzvlər icraçı vəzifəsindədir. Icraçı üzvlər üç hissəyə bölünür. Səsin yaranmasında bu hissələrin və bunlara daxil olan üzvlərin hər biri müəyyən vəzifə yerinə yetirir.

***I hissə***- bu hissəni tənəffüs ( nəfəs ) orqanı təşkil edir. Məlumdur ki, səsin materiyası hava axınıdır. Bu hava axını tənəffüs orqanı vasitəsi ilə əmələ gəlir. Tənəffüs orqanına ağ ciyərlər, bronxlar və nəfəs borusu daxildir.

1. *Ağ ciyərlər*. Ağ ciyərlər nəfəs orqanının başlıca üzvüdür. Bu öz mahiyyətinə görə köməkçi xarakterb daşıyır. Səsin yaranmasındfa ağ ciyərlərin rolu bunlardan ibarətdir: a) hava axının yarnmasında baza təşkil edir; b) hava axınının bronxlardan nəfəs borusuna, nəfəs borusundan xirtdəyə, xirtdəkdən udlaq boşluğuna və oradan da ağız və burun boşluğuna keçməsinə təsir edir; c) müxtəlif səslərin yaranması üçün hava axınını tələbata uyğun şəkildə tənzim edir.
2. *Bronxlar*. Səsin yaranmasında bronxların rolu ağ ciyərdən gələn havanın nəfəs borusuna keçməsinə imkan yaratmasından ibarətdir.
3. *Nəfəs borusu*. Bu üzv ağ ciyərdən gələn havanın qırtlağa (xirtdəyə) gəlib çatmasına imkan yaradır. Buna görə bronxlar kimi. nəfəs borusu da hava axını yolu adlanır.

   Deməli, tənəffüs orqanına daxil olan üzvlərin vəzifəsi lazım olan səsin yarnması üçün kifayət qədəq hava axını verməkdən ibarətdir.

II hissə -bu hissəni səs törədn üzvlər təşkil edir. Səs, əsasən bu hissədə əmələ gəlir. Belə ki, ağ ciyərlərdən gələn hava axını burada müəyyən maneə ilə rastlaşır və səs yaranır. Bu iki hissəyə daxildir: xirtdək, səs telləri.

1. *Xirtdək (qırtlaq)*. Xirtdək qısa borudan ibarətdir. Xirtdək bir neçə qığırdağın birləşməsindən ibarət üzvdür.

2. *Səs telləri*. Hava axınının səsə çevrilməsində səs telləri mühüm rola malikdir. Səs telləri xirtdək boşluğunda yerləşir. Səs telləri bir- birinə yaxınlışdıqda, yaxud gərginləşdikdə ağ ciyərdən gələn hava axını səs tellərini ehtizaza gətirir, beləliklə, səs əmələ gəlir. Burada yara a səs nitq üçün formalaşmamış, xam materialdır.Həmin xam material digər üzvlərin vasitəsi ilə formalaşar və müxtəlif səslərə çevrilir.

**III hissə**- bu hissəni səsi formalaşdıran üzvlər təşkil edir. Səsin formalaşmasında və eləcə də müxtəlif səslərin yaranmasında bir sıra üzvlər iştirak edir. Həmin üzvlər aşağıdakılardır.

1. *Udlaq boşluğu*. Xirdəkdən gələn səsin ağız boşluğuna və ya burun boşluğuna keçməsi imkanı udlaq boşluğu vasitəsi ilə yaranır.
2. *Ağız boşluğu*. Müxtəlif səslərin formalaşmasında iştirak edən ən başlıca üzv ağız boşluğudur. Ağız boşluğu səsin formalaşması üçün, bir növ laboratoriyadır. Ağız boşluğu udlaq boşluğundan gələn səsləri qəbul edərkən, öz vəziyyətini dəyişməklə, onlara müxtəlif rəng verir.
3. *Dil*. Səslərin formalaşmasında iştirak edən mühüm üzvlərdən biri dildir. Dil çox mütəhərrik üzvdür. Dil üç hissəyə bölünür: dilönü,dilortası və dilarxası.
4. *Dişlər*. Dişlər səslərin müxtəlifləşməsində köməkçi üzvdür. Bunlar iki formadadır: alt dişlər, üst dişlər.
5. *Yuvaqlar*. İçəri tərəfdən dişlərin dibindəki çıxıntıya yuvaq. Yaxud alveol deyilir. Nitq səslərin formalaşmasında yuvaqlar da müəyyən vəzifə yerinə yetirir.
6. *Damaq*. Ağız boşluğunun üst hissəsini təşkil edir. Damaq bir- birindən fərqli iki hissəyə bölünür: sərt damaq (ön hissə), yumşaq damaq (arxa hissə). sərt damaq yumşaq damaqdan demək olar ki. iki dəfə böyükdür.
7. *Dilçək*. Bu üzv yumşaq damağın sonunda yerləşir. Dilçəyə eyni zamanda damaq pərdəsi də deyilir. Dilçək hərəkət edən üzvdür. O, aşağı və yuxarı istiqamətdə hərəkət edir. Dilçək yuxarı qalxmış vəziyyətdə olarkən burun boşluğuna gedən hava axınının qarşısını kəsir; aşağı düşmüş vəziyyətdə isə burun boşluğunun yolu açılır və hava burun boşluğuna daxil olur. Beləliklə də, burun səsinin formalaşmasına imkan yaranır.
8. *Burun boşluğu.* Burun boşluğunu ağız boşluğundan damaq ayırır. Burun boşluğu burun çalarlıqlı bir sıra səslərin yaranmasında iştirak edir.
9. *Dodaqlar*. Səslərin formalaşmasında dodqaların da xüsusi rolu vardır. Dodaqlar ikidir: alt dodaq, üst dodaq. Dodaqlar hərəkət edən üzvdür. Bunların hərəkəti çox mürəkkəbdir. Belə ki, dodaqlar irəli uzanır, yana dartılır, bir-

birinə tərəf hərəkət edib kipləşir və s. Bu hərəkətlərə əsasən də müxtəlif sait və samit səslər formalaşır.

10. *Alt çənə*. Bu üzv xirtdəkdən gələn səslərin müxtəlif avazlı nitq səslərinə çevrilməsinə kömək edir. Ağız boşluğunun həcmi bu üzvün iştirakı ilə dəyişə bilir.

Dildəki səslərin əmələ gəlməsində danışıq üzvlərindən bəziləri mütəhərrik, yaxud hərəkət edən, bəziləri isə qeyri- mütəhərik, yaxud hərəkət etməyən üzvlərdir. Bu nöqteyi-nəzərdən danışıq üzvləri iki yerə bölünür: **fəal üzvlər və qeyri-fəal üzvlər**

A) Fəal üzvlər. Bu və ya başqa səsi yaranmasında mütəhərrik olan üzvlərə fəal üzvlər deyilir. Fəal üzvlər bunlardır: dil, dodaqlar, səs telləri, alt çənə, yumşaq damaq, dilçək.

b) Qeyri-fəal üzvlər. Bu və ya digər səsin əmələ gəlməsində qeyri-mütəhərrik və ya az mütəhərrik olan danışıq üzvləri qeyri-fəal üzvlər adlanır. Qeyri-fəal üzvlər bunlardır: dişlər,yuvaqlar, sərt damaq, nəfəs borusu, ağ ciyərlər

Nitqdəki bu və ya digər səsin yaranmasında üzvlərinin aldığı vəziyyətə **məxrəc (artikulyasiya)** deyilir.

Bu və ya digər danışıq səsinin yaranması zamanı danışıq üzvlərinin hərəkətində bir ümumi cəhət göstərir. Bu ondan ibarətdir ki, bu və ya digər səsin tələffüzündə üç mərhələ nəzərə çarpır:

1) Bu və ya digər səsi tələffüz etmək üçün danışıq üzvləri hərəkətə başlayır. Buna başlanğıc və ya ekskursiya deyilir.
2) Həmin səsi tələffüz etmək üçün danışıq üzvləri bir an hərəkətsiz qalır ki, buna fasilə və ya pauza deyilir.
3) Bu səs tələffüz edildikdən sonra danışıq üzvləri öz əvvəlki vəziyyətini almağa başlayır ki, buna sonluq və ya rekursiya deyilir.

İnsanlar nitqi, adətən, qulaqları vasitəsilə eşidir və qavrayırlar. Qulaq, əsasən, üç hissədən ibarət olur: xarici hissə, orta hissə və iç hissə.

Xarici qulaqla orta qulaq arasında qulaq pərdəsi yerləşir ki, adətən, səs dalğaları, hər şeydən əvvəl, onları rəqsləndirir. Qulaq pərdəsindən sonrakı hissədə - həcmi 1 sm olan uzunsov pəncərəni xatırladan hissədə çəkic, zindan, üzəngi tipli sümüklər yerləşmişdir. Bu sümüklər ling kimi işləyən oyna qsümüklərdir. Qulaqda qıcaqlanmaya çox həssasolan sinir uclarının olduğu hissə endolimf deyilən maddə ilə doludur. Burada əsas mebran deyilən hissə də yerləşir. Həmin mebran bir-biri ilə zəif bağlanmış təxminən 20. 000 lifdən ibarətdir. Məhz bu liflərin hərəkəti ilə biz müxtəlif

səsləri eşidə bilirik. İnsan qulağı, adətən, 16 ilə 20.000 hs arasındakı tezliyə malik olan səsləri eşidir.

## Fonem və danışıq səsi

Müasir dövrün dilçiliyində ən geniş şəkildə işlənən, lakin yenə mübahisəli olan mühüm problemlərdən biri məhz fonem problemidir. Fonem problemini tarixi rus dilçisi **İ. A. Boduen de Kurten**edən başlayır. İlk dəfə o, dilçiliyə indi işlənən mənada fonem məsələsini gətirmiş və onun ilk izahını vermişdir. Məlum olduğu kimi, Boduen fonem haqqında müxtəlif mülahizələr irəli sürmüşdür. Əvvəlcə fonemə etimoloji-morfoloji hadisə kimi baxan görkəmli alim sonralar psixolji mövqeyə keçmiş və fonem məsələsini məhz bu mövqedən izah etmişdir.

Dilçilikdə ilk dəfə olaraq L. B, Şerba fonemin mənaları fərqləndirə bilməsindən danışmış və beləliklə, fonem haqqında elmin inkişafı tarixində irəliyə döğru böyük bir addım atmışdır. Fonem məsələsində L. B, Şerbanın mülahizələri bir cür olmamışdır. İlk əsəarlərində o, fonemə daha çox psixoloji cəhətdən yanaşmış, sonralar isə onu daha çox linqvistik izahını vermişdir.

Fonem və danışıq səsi məsələsini müxtəsər olaraq belə izah etmək olar: fonem dilin ən kiçik vahididir. **Sözün cilidini dəyişməyə xidmət edən, bununla əlaqədar olaraq leksik və qrammatik dəyişikliyinə səbəb olan ən kiçik dil vahidinə fonem deyilir.**

Fonem ilə danışıq səsi arasında olan fərqi və əlaqəni yadda saxlamaq lazımdır. Hər şeydən əvvəl, nəzərdə tutmaq lazımdır ki, **fonem sosiolji fonetika və ya fonologiyanın, danışıq səsi isə birinci növbədə, fiziloji fonetika və akustik fonetikanın tədqiq obyektidir**. Bəzən fonem ilə danışıq səsi bir- birinə uyğun gəlir, bəzən isə gəlmir. Məsələn, dağ və tağ sözlərində d və t müxtəlif fonemlər və müxtəlif danışıq səsləridir. Burada fonem ilə danışıq səsləri arasında tam uyğunluq vardır. Süd və süt sözlərində isə d və t səsləri eyni bir fonemə -d foneminə daxildir. Lakin yuxarıda olduğu kimi, burada d və t müxtəlif danışıaq səsləridir. Deməli, dilçilikdə fonem anlayışı danışıq səsi anlayışından daha genişdir.

Fonemlər danışıq səsləri şəklində mövcuddur. Bu onların arasında qırılmaz əlaqənin əsasını təşkil edir.

### ***Fonem və onun variantları.***

Yuxarıda qeyd olunduğu kimi, fonem dilin ən kiçik və bölünməz vahidi olub, morfemləri bir-birindən fərqləndirməyə xidmət edir. Başqa sözlə, bir-birindən yalnız

bir səsə görə fərqlənən iki leksik və ya qrammatik vahid öz məzmunlarına görə də fərqlənirsə, o zaman onları fərqləndiərn səslər dildə müxtəlif fonem kimi çıxış edirlər. Bəzən müxtəlif sözlərdə və yaxud müxtəlif şəkilçilərdə müxtəlif danışıq səsləri olur, lakin söz və şəkilçilər bir-birindən fərqlənmir. Məsələn, Azərbaycan dilində dörd və dört sözlərində iki müxtəlif samit (cingiltili d və kar t samitləri) iştirak edir. Məlum olduğu üzrə, həmin danışıq səsləri xeyli miqdarda sözü bir-birindən fərqləndirə bilir. Məsələn: *dağ-tağ, dar-tar, ada-ata* və s.

Lakin qeyd olunan *dörd* və dört sözlərində həmin danışıq səsləri özlərinin bu vəzifələrini yreinə yetirə bilmir. Eyni vəziyyəti biz ismin yiyəlik halının şəkilçisi olan *–ın, -in, -un, -ün* morfolji əlamətində də görürük. Göründüyü kimi, yiyəlik məzmunu bildirən morfem müxtəlif saitlərin iştirak etdiyi dörd fonetik tərkibdə çıxış edir. Həmin saitlər isə öz növbəsində sözləri bir-birindən fərqləndirə bilir; məsələn, siz-sız(maq)-süz, habelə sis-sus(maq) və s. Lakin göstərilən şəkilçidə onlar dörd “ müxtəlif” şəkilçini bir-birindən fərqləndirə bilmir. Hər dörd forma eyni mənanıı ifadə edir.

Maddi cəhətdən eyni olan danışıq səslərinin linqvistik vəzifəsi heç də eyni deyildir.

Beləliklə, dildə iki qrup danışıq səslərini qeyd etmək lazım gəlir ki, onların bir qrupu morfemləri bir-birindən fərqləndirə bilir, digər qrupu isə fərqləndirə bilmir. Birinci qrupa daxil olan danışıq səsləri fonem, ikinci qrupa qrupa daxil olan danışıq səsləri isə variantları arasında qəti, mütləq sərhəd qoymaq olmaz. Dildə mücərrəd fonemlər yoxdur. Onlar yalnız morfem daxilində mövcuddurlar. Deməli, bir halda fonem çıxış edən danışıq səsi başqa bir halda variant kimi işlənə bilər. Buna görə də fonem və variantları müəyyənləşdirmək üçün həmişə onu sistem daxilində almaq və tədqiq etmək lazımdır. Hər bir dilin fonemlər sistemində mövcud olan bu hal, hər şeydən əvvəl, yuxarıda göstərilən fonetik hadısələrin nəticəsidir.

## **O**rfoepiya

Ədəbi tələffüzə və onu haqqında olan elmə orfoepiya deyilir. Orfoepiya hər hansı bir dildə sözlərin düzgün tələffüz qaydalarını öyrənir və öyrədir.

Orfoepiya, adətən, ictimai əhəmiyyətə nmalikdir. Belə ki, müxtəlif təbəqələrin tələffüzndə, demək olar ki,həmişə fərqli cəhətlər özünü göstərir. Sinifli cəmiyyətdə, xalqın böyük hissəsi savadsız olduğu zaman, bu hal özünü xüsusən hiss etdirir.ək

Hərflərin oxunuş qaydları da orfoepiyaya daxildir. Xüsusən, yazısı ilə tələffüzü uyğun gəlməyən dillərdə orfoepiyanın həmin sahəsinə xüsusi filir verilir.

Tələffüz nitqin şifahi qoluna aiddir. Natiq yazdığı nitqi şərh edərkən və ya nəyin isə haqqında danışarkən onun tələffüzü mühüm rol oynayır. Tələffüz nümunəvi nitqin mühüm amilidir. Hər bir nitq necə tərtib olunursa-olunsun, onun dinləyiciyə çatdırılması tələffüzün üzərinə düşür. Sözlərin düzgünlüyü, səlisliyi, aydınlığı tələffüzün əsasını təşkil edir. Nitqin gözəlliyinə xidmət edən diksiya aktyor, müəllim, diktor üçün çox mühümdür. Hər bir natiq nitqini şərh edərkən, emosionallığa ciddi riayət etməlidir. Çünki diksiya emosionallıqla bilavasitə əlaqədardır. Dinləyicilərin diqqətini cəlb edən məsələlərdən biri də nitqdə səs tembrindən düzgün istifadə olunmasıdır. Natiq nitqi şərh edərkən auditoriyanı nəzərə almalı və səsin tembrini ona uyğun şəkildə qurmalıdır. Nitqdə təsvir olunan hadisələrlə yaşayan natiq səsinin tembrində də bunu hiss etdirməlidir. Yeri gəldikcə tempi dəyişməlidir.

Nitqin ümumi şərhi isə orta tempdə olmalıdır. Səsin eşidilmə dərəcəsi natiqin ustalığını nümayiş etdirir, bu diksiya üçün gözəl zəmin yaradır. Nitq zamanı tələsmədən, aramla danışmaq mühüm rol oynayır. Tez-tez danışmaq, dilin topuq vurması, ağız quruması, yersiz udqunmalar diksiyanın pozulması deməkdir. Diksiyada natiq ağ ciyərdən gələn hava axınını da düzgün tənzimləməlidir. Nitq prosesində tənəffüs sistemi pozulursa, onda diksiya da pozulur. Belə nitqin təsir qüvvəsi zəifləyir və dinləyicilərin diqqətinin yayınmasına səbəb olur. «Danışarkən cümlənin təkcə məzmunu deyil, həm də nə məqsədlə söylənilmiş olması sözlərin necə səslənməsinə təsir edir. Yəni səs bəzən ucalır, bəzən, əksinə, qısalır, daha da alçalır, bəzən uzanır, bəzən nitq axını kəsik-kəsik tələffüz olunur, bəzən isə, əksinə, qarışıq bir silsilə təşkil edir. Bununla da nitqin ritmik və melodik cərəyanı formalaşır ki, buna avazlanma (intonasiya) deyilir».

Gətirdiyimiz sitatdan aydın olur ki, intonasiyadan (sitatda onu mərhum professor Ə.Dəmirçizadə avazlanma adlandırsa da, intonasiya terminindən istifadə edəcəyik) natiq öz nitqində işlətdiyi ara sözləri, sual cümlələri, xitabları, nidaları, əlavələri, xüsusiləşmələri düzgün tələffüz etmək üçün (bura vurğunu da əlavə etmək olar) istifadə edir. Həmcins üzvlər arasında cümlələrin sadalanmasında intonasiyanın təkrar olunması nitqdə hiss olunmalıdır. İntonasiya mürəkkəb bir hadisədir. Buna səs tonunun alçalıb yüksəlməsi, nitqin sürəti, tələffüzün qüvvətləndirilib zəifləndirilməsi, cümlə daxilində fasilənin olub-olmaması və s. daxildir. İntonasiya təsdiq cümlələrini sual və nida cümlələrindən, tabesizlik əlaqəsini tabelilik əlaqəsindən fərqləndirmək üçün imkan yaradır, intonasiya mənaya görə cümlənin müəyyən hissəsini ayırmağa da imkan verir. İntonasiya vasitəsi ilə şübhə, təəccüb, şadlıq, qəmginlik, kədər və s. kimi hisslər ifadə edilir.

İntonasiyadan düzgün istifadə etmək nitqin mənasını yaxşı başa düşməyə kömək edir. Görkəmli şairlərin və bədii söz ustalarının şeir oxuyarkən intonasiyadan bacarıqla istifadə etdikləri bizə məlumdur. Onlar intonasiyadan düzgün istifadə edərək, əsərlərin məzmun və mənasını, eyni zamanda onları yaradarkən, şairlərin keçirdikləri hiss və həyəcanları məharətlə dinləyicilərin şüuruna çatdıra bilirlər. Natiq nitqi şərh etdiyi zaman çalışmalıdır ki, dinləyici onun səsindən yorulmasın, əksinə, estetik ləzzət alsın. Natiqin nitqi avazlanma vasitəsi ilə dinləyicilərdə xoş əhval-ruhiyyə yaratmalıdır. Natiq nitqini şərh edərkən sazəndələr musiqi alətlərindən hansı məharətlə istifadə edirlərsə, o da elə ustalıqla fikrini ifadə etməli və dinləyicilərin zövqünü oxşamalıdır.

Orfoepiya yunan sözü olub düzgün nitq deməkdir. Orfoepik normalar da dilimizin şifahi qoluna aiddir. Orfoepiya şifahi nitq üçün səciyyəvi nə varsa hamısını əhatə edir. Orfoepiyanın tədqiqat obyekti aşağıdakılardır:

- Səslərin düzgün tələffüzü
- Sözlərin, tərkiblərinin düzgün tələffüzü
- Qrammatik normaların tələffüzü

Deməli, orfoepiya ümumi normalar əsasında yaranan fonetik qayda-qanunların bir-biri ilə bağlı məsələlərini tədqiq edir, öyrənir. Bəzən orfoepiya dar mənada tədqiq olunur. Bura yalnız tələffüz anlayışı daxil edilir. Lakin orfoepiya çox geniş bir anlayışdır ki, bu anlayışlar hər biri ayrı-ayrılıqda nitqin əsas amillərindən birini təşkil edir. Məsələn, səslərin hansı şəraitdə tələffüz olunması, sözün əvəlində, ortasında, axırında işlənməsi, məxrəc sabitliyinə görə, yanaşı işləndikdə hansı xüsusiyyətə malik olması və sair məsələlər orfoepiyanın tədqiq obyektdir. Bura intonasiya və vurğunu da əlavə etmək olar. Orfoepiya həm də alınma sözlərdə vurğunun düzgün tələffüz olunmasına da kömək edir. Orfoepiya ilə nitq sürəti məsələsinin də müəyyən dərəcədə əlaqəsi var. Hətta orfoepik üslub növlərini müəyyənləşdirən əlamətlər sırasında sürətin də nəzərə alınması zəruri sayılır. Nəhayət, belə bir cəhəti də yada salmalıyıq ki, orfoepiya, ümumiyyətlə, şifahi ədəbi dilin normalar sistemi anlayışı ilə bağlı olduğundan, şifahi ədəbi dilin müxtəlif üslubları ilə əlaqədar bir sıra əlamətdar cəhətləri də əhatə edir. Sitatdan göründüyü kimi, orfoepiya geniş bir anlayışdır. Ədəbi dilin normaları ilə, üslublar sistemi ilə qırılmaz şəkildə bağlıdır. Orfoepiya həm də yüksək mədəni nitq üçün insanın dil qabiliyətinin inkişafına, püxtələşməsinə zəmin yaradır. Natiq nitqini şərh edərkən, fonetik qanunları, fonetik hadisələri və onların tələffüzündən irəli gələn xüsusiyyətləri nəzərə almalıdır. Bəzi natiqlər nitqlərində kitab üslubuna üstünlük verir. Yəni söz necə yazılırsa, elə də tələffüz olunur. Bu qətiyyən düz deyil, onda nitq quru çıxır və dinləyicilərin yorulmasına səbəb olur. Bəzi natiqlər nitqlərində dialekt sözlərə yer ayırır. Bunlar da öz növbəsində orfoepiyanın pozulması deməkdir. Hər bir natiq fikrini necə şərh edirsə etsin, fərqi yoxdur, orfoepik normalara riayət etməlidir. Fikir həm məzmun və forma, həm də ideya məntiqi əsaslar üzərində qurulmalıdır. Natiq nitqini qurarkən orfoepiyanın normalarını və ünsürlərini nəzərə almalıdır. Bu ünsürlər isə aşağıdakılardır:

- Fasilə (pauza)
- Vurğu
- Ahəngdarlıq (buna melodiya da deyirlər)
- Sürət (buna temp də deyirlər)

Bu dörd ünsürə riayət edən natiq nümunəvi nitqə nail ola bilir. Fasilə nitq prosesində mühüm rol oynayır. Bəzən fasilə durğu işarələri hesabına edilir. Lakin şifahi nitqdə fasilə mənaya görə edilir. Çünki şifahi nitqdə orfoqrafik işarələr görünmür. Natiq cümlənin mənasına əsasən fasilədən istifadə edir. Fasilə nitqin ikimənalılığını aradan qaldırır, xitabların, ara sözlərin, müqayisə edilən birgə sözlərin düzgün işlənməsini təmin edir. Natiq nitqində həm heca vurğusuna, həm məntiqi vurğuya, həm həyəcanlı vurğuya qarşı diqqətli olmalı, müəyyən məna çalarlığını dərindən bilməlidir. Natiq həm güclü vurğuya (ona dinamik vurğu deyilir), həm də avazlı vurğuya (buna tonik vurğu deyilir) düzgün əməl etməlidir. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan dilində sabit vurğudur. Natiq onu da bilməlidir ki, dilimizdə işlənən şəkilçilər vurğunu qəbul edir və sözdə vurğunun yeri dəyişir. Burada vurğu qəbul edən şəkilçilər nəzərdə tutulur (dilimizdə vurğu qəbul etməyən şəkilçilər də var). Məsələn: Yaz-ı-çı-lıq-dan, iş-çi-lər-dən, tək-mil-ləş-dir-il-miş-lər-dən və sair. Misallardan aydın olur ki, vurğu şəkilçilərin artırılması ilə əlaqədar yerini dəyişir. Natiq vurğu qəbul etməyən şəkilçiləri də bilməlidir. Əks təqdirdə sözlərin mənasını düzgün ifadə edə bilməz. Məsələn: alma-alma, çəkmə-çəkmə, vurma-vurma və s.

Ahəngdarlıq ünsürü də nitqdə böyük rol oynayır. Nəsr dilində nitqin parçalara bölünməsi bir ahəngdarlıq yaradır. Ahəngdarlıq isə natiqin işini asanlaşdırır və müəyyən nizama salır. Ahəngdarlıq natiqin əməyini yüngülləşdirir, onun rahat işləməsi üçün yüngüllük gətirir. Ahəngdarlıq həyatın bütün sahələrində özünü göstərir. Məsələn: nəbzin vurması, əsgərlərin yerişi, quşların uçuşu və s. Ahəngdarlıq təbiətin, cəmiyyətin inkişafında da daimi yer tutur: Dildə, rəqsdə, sənətdə belə müəyyən bir ahəng var ki, bu da müəyyən bir qanuna və nizama tabedir. Biz rəqsdə dinamik hərəkətləri, dildə nitq ünsürlərini görürük. Nəzmdəki ahəng nitq ünsürlərinin müvazinətli təkrarından doğur.

Nitq də belədir. Nitq müəyyən hissələrə bölünməklə bərabər, müəyyən bir nizam ilə təkrar edilirsə, ahəng təsiri yaranacaqdır. Əgər mənzum misralar mütəmadi olaraq uzanan mənsur bir parça ilə yanaşı qoyulursa, müvazinət, nizam, ahəng görünməyə bilər. Lakin eyni misralar bir ölçüdə olmaqla bərabər, müəyyən pauzalar (fasilələr) və durğularla davam edərsə, səslərin bu nizamlı əlaqəsindən mütləq ahəng doğacaqdır. S.Vurğunun «Şair, nə tez qocaldın sən»! şerində ahəngdarlığın, axıcılığın, hər misranın dərin məna kəsb etməsinin şahidi oluruq.

*Nemətsə də gözəl şeir,*
*Şair olan qəm də yeyir,*
*Ömrü keçir bu adətlə,*
*Uğurlu bir səadətlə.*
*Görən məni nədir, deyir,*

*Saçlarına düşən bu dən?*
*Şair, nə tez qocaldın sən!*

Orfoepiyanın böyük əhəmiyyəti vardır. O, eyni sözün müxtəlif formalarda tələffüz olunmasına yol vermir. Ümumiyyətlə, düzgün tələffüz olunan dil vasitələri hər zaman fikrin asan və tez anlaşılmasına imkan yaradır. Bunun əsasında da insanlar bir-birini düzgün başa düşürlər. Orfoepik qaydalar poeziya üçün xüsusi əhəmiyyətə malikdir. Bu qaydalara əməl etməklə bədii nitqin estetik effekti, daha da artır. Bütün bunlara görə də orfoepiyanın nəzəri və praktik cəhətdən öyrənilməsinin böyük əhəmiyyəti vardır:

Hər bir şəxsdən ədəbi dilin qanunlarına riayət edərək danışması tələb olunur. Buna görə də ilk növbədə, müəllim, alim, diktor və aktyorlar dilimizin tələffüz qaydalarını əsaslı surətdə bilməlidir.

Orfoepik qaydaların pozulması yol verilməzdir. Lakin bəzən danışıq zamanı bu normaların pozulması halları olur. Orfoepiya normaları başlıca olaraq bir neçə səbəbdən pozula bilər: a) danışanın dialekt sözlərdən istifadəsi; b) klassik ədəbi dilin; v) alınma sözlərin; q) orfoqrafiyanın təsiri nəticəsində. Danışıq zamanı orfoepik normaların pozulması dinləyicinin fikrini əsas məsələdən uzaqlaşdıra bilir. Belə ki, «biz danışanı dinləyərkən, onun nitqinin əsas cəhətinə bir o qədər diqqət etmirik; əsasən mənaya fikir veririk. Lakin danışan şəxs tələffüz qaydalarını pozduqda dinləyici sözün xarici cəhətinə, yəni səs cəhətinə də diqqət yetirməyə məcbur olur. Bunun nəticəsində isə onun diqqəti yayınır.» (Ə. Əfəndizadə).

«Orfoepik normalardan uzaqlaşmaq ümumi anlaşma işinə mane olur. Buna görə də orfoepik normaların pozulmasına qarşı müntəzəm mübarizə aparmaq, onu qorumaq lazımdır.

## Orfoqrafiya qaydaları

### Saitlərin yazılışı

O saitli alınma sözlər a və ya o ilə deyilməsindən asılı olmayaraq, o ilə yazılır: avtomat, biologiya, velosiped, ensiklopediya, kollektiv, kombinat, laborant, obyekt, poeziya, poema, poçtalyon, problem, professor, solist, motor, polkovnik.

- Ü saitli alınma sözlər ü ilə də yazılır: alüminium, bülleten, büro, jüri.
- Aşağıdakı sözlər ədəbi tələffüzdə olduğu kimi, iki heca ilə yazılır: qəbir, qədir, eyib, ətir, zehin, isim, nəsil, ömür, səbir, sətir, sinif, fəsil, fikir, şəkil, heyf, meyil, əsil, şeir, feil.
- Əslində sonu a ilə bitən alınma sözlərdən aşağıdakılar a-sız yazılır: anket, aptek, armatur, atmosfer, vitrin, qəzet, idiom, kayut, kaset, kontor, konfet, lent, maşın, perspektiv, pyes, planet, reklam, sistem, sitat.

## Samitlərin yazılışı

- Birinci hecasındakı samiti həm n, həm də m ilə deyilən sözlər n ilə yazılır: anbar, qənbər, zənbil, günbəz, sünbül, şənbə.

Kombayn, kombinat, kömbə, pambıq sözləri istisnadır.

- Əslində sonu qoşa samitlə bitən iki və ya çoxhecalı sözlər bir samitlə yazılır: ekspres, kilovat, kiloqram, konqres, metal, mühüm, proses, sərhəd, hüsnxət.
- Sonu -iy, -skiy ilə qurtaran xüsusi və ümumi alınma isimlərin sonundakı y yazılmır: Qorki, Yaroslavski, Mayakovski, ssenari, planetari, profilaktori, sanatori.

Qeyd. Kimyəvi element adları əslinə uyğun olaraq yazılır: kalium, maqnezium, natrium.

- Rus dilində tərkibində ц olan ümumi isimlər s ilə yazılır: dosent, konsert, sex, sirk, sement, lisey.

Vitse sözü istisnadır. Xüsusi isimlərdə sözün əvvəlində s, sözün ortasında və axırında ts yazılır: Setkin, Sialkovski, Vorontsov, Kuznetsov, Motsart, Muromets.

- Rus dilində tərkibində щ olan alınma sözlərin əvvəlində və axırında bir ş, sözün ortasında isə iki ş (şş) yazılır: Şedrin, Şerba, şotka, borş, Vereşşaqin, Quşşin, meşşan.
- Əsli h samitli alınma sözlər h ilə yazılır: Heyne, hektar, Hegel, hegemon, hidrogen, himn, hospital, hotel.
- Əsli c samitli alınma sözlər c ilə də yazılır: Cek London, cemper, Siciliya.
- Əsli q samitli alınma sözlər incə saitli hecalarda g ilə yazılır: biologiya, dialektologiya, genezis, general, geologiya, gigiyena, gimnastika, gitara.

## Sözün müxtəlif yerlərindəki qoşa sait və samitlərin yazılışı

- Qoşa saitlə deyilən sözlər qoşa saitlə də yazılır: maaş, saat, camaat, bədii, əmtəə.
- Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır: vatt, zənn, zidd, küll, rədd, sirr, fənn, xətt, haqq, hiss.

Bu sözlərə samitlə başlanan şəkilçi əlavə olunduqda söz kökündəki qoşa samitdən biri düşür: zid-dir, sir-daş, fən-lər, xət-siz, his-siz.

- İki sait arasında gələn qoşa samitlər qoşa samitlə yazılır: ballada, kassa, şassi, vassal, kapella, klassik, libretto, operetta, nəqqaş, səyyar, kəmiyyət.

Qeyd. Qruppa, antenna, tonna, apparat, parallel sözləri və -ma hecası ilə qurtaran sözlər aşağıdakı kimi yazılır: qrup, anten, ton, aparat, paralel, diaqram, proqram, stenoqram, teleqram.

## Şəkilçilərin yazılışı

- Sözdüzəldici şəkilçilər aşağıdakı kimi yazılır:
- Bir cür yazılan şəkilçilər:
- -i və ya -vi şəkilçisi: daxili, tarixi, həyati, cənubi, şimali, dairəvi, kimyəvi, kütləvi, Gəncəvi;
- -vari şəkilçisi: buynuzvari, qalxanvari, yüngülvari, üzükvari.
- İki cür yazılan şəkilçilər:

Kar samitlə bitənlərdə: -qan, -kən; cingiltili samitlə bitənlərdə -ğan, -gən şəkilçiləri: yapışqan, çalışqan, döyüşkən, sürüşkən, burulğan, deyingən.

- Dörd cür yazılan şəkilçilər:
- -kı, -ki, -ku, -kü şəkilçiləri: axşamkı, bildirki, səhərki, onunku, gündüzkü, bugünkü;
- sifət və isim düzəldən -ı, -i, -u, -ü şəkilçiləri: badımcanı, darçını, narıncı, ceyranı, dərbəndi, çərkəzi, novruzu, gümüşü;
- fel köklərindən isim və sifət düzəldən şəkilçilər:

sonu kar samitlə bitənlərdə:

- -ki, -qı, -kü, -qu: seçki, bıçqı, sürtkü, pusqu;
- -kin, -qın, -kün, -qun: bitkin, satqın, ötkün, tutqun;

sonu cingiltili samitlə bitənlərdə:

- -gi, -ğı, -gü, -ğu: vergi, çalğı, bölgü, vurğu;
- -gin, -ğın, -gün, -ğun: əzgin, qırğın, düzgün, yorğun.
- -ıstan, -istan, -ustan, -üstan şəkilçiləri samitlə bitən sözlərdə: Dağıstan, Türkmənistan, Monqolustan, Türküstan.

Qeyd. Saitlə bitənlərdə -stan yazılır.

## Rəqəmlə yazılan miqdar saylarında şəkilçilərin yazılışı

Rəqəmlə yazılan miqdar saylarına mənsubiyyət və hal şəkilçiləri əlavə edildikdə şəkilçidən əvvəl defis qoyulur: 20-dən, 3-də, 2-yə, 6-nın, 5-i, 17-si.

Ərəb rəqəmlərindən sonra ahəngə görə sıra sayının şəkilçisi ixtisarla (-cı, -ci, -cu, -cü) yazılır: 6-cı, 2-ci, 10-cu, 3-cü.

## Mürəkkəb sözlərin yazılışı

- Bir vurğu ilə deyilən mürəkkəb sözlər bitişik yazılır: arabir, balacaboy, beşillik, beşmərtəbə, qalxanabənzər, qanunvericilik, qurultayqabağı, dilucu, günəbaxan, güləruz, müxtəliftərəfli, özbaşınalıq, soyuqqanlı, ümumbəşəri, ucdantutma, bugünkü, hərgecəki, ilbəil, günbəgün, qaçaqaç, Bülbüloğlu, Qənbərqızı, Həsənoğlu, Çərkəzqızı, Əliağa.
- Tərkibindəki sözlərin səciyyəsindən asılı olaraq, aşağıdakı hallarda defisdən istifadə edilir:
- qoşa sözlərdə: adda-budda, az-maz, qara-qura, qarma-qarışıq, qonaq-qara, dedi-qodu, əzik-üzük, kağız-kuğuz, sür-sümük, aşıq-aşıq, top-top;

- tərkibində qeyri, əks, külli, anti, eks, vitse, kontr, ober, super sözləri işləndikdə: qeyri-adi, qeyri-iradi, əks-inqilab, əks-hücum, külli-ixtiyar, vitse-admiral, kontr-admiral, ober-leytenant, super-market;
- izafət tərkiblərində: tərzi-hərəkət, nöqteyi-nəzər, həddi-buluğ, tərcümeyi-hal;
- tərkibində mənaca bir-birinə yaxın və ya zidd sözlər işləndikdə: ab-hava, alış-veriş, ölüm-itim, kafe-restoran, kilovat-saat, cənub-qərb, şimal-şərq, az-çox, elə-belə, gec-tez, ağıllı-kamallı, ucsuz-bucaqsız, pis-yaxşı, fabrik İdi, imiş, ikən köməkçi sözləri adlardan (isim, sifət, say, əvəzlik) və saitlə qurtaran fellərdən sonra ayrı, samitlə bitən fellərdən sonra həm ayrı, həm də ilk saiti buraxılaraq, şəkilçiləşmiş variantlarda bitişik yazılır: ata idi, ata imiş, ata ikən, uşaq idi, uşaq imiş, uşaq ikən, gəlməli idi, gəlməli imiş, gəlməli ikən, gəlmişdi, gəlmişmiş, gəlirkən, gəlmiş imiş…-zavod, iki-üç, gedər-gəlməz, yazar-yazmaz, bitməz-tükənməz, dinməz-söyləməz.

## Köməkçi sözlərin yazılışı

- Qoşmalar iki cür yazılır:
- birhecalı qoşmalar (-can, -cən, -dək, -tək) aid olduqları sözə bitişik yazılır: dağacan, evəcən, küçəyədək, quştək;
- ikihecalı qoşmalar (qədər, kimi, ötrü, təki, təkin, üçün, ilə) aid olduqları sözdən ayrı yazılır: evə qədər, adam kimi, ondan ötrü, sənin təki, şagird üçün.

Qeyd: İlə qoşması samitlə bitən sözlərdə ahəng qanununa uyğun olaraq -la, -lə şəklində bitişik yazıla bilər.

- Mənşəcə mürəkkəb olan aşağıdakı bağlayıcılar bitişik yazılır: yainki, yaxud, nəinki, habelə, halbuki, həmçinin, hərgah, hərçənd, çünki.
- İki sadə bağlayıcıdan və sadə bağlayıcı ilə başqa nitq hissələrindən əmələ gələn bağlayıcılar və bağlayıcı sözlər bir-birindən ayrı yazılır: belə ki, buna görə də, bununla da, bunun üçün, və ya, və yaxud, daha da, demək ki, yoxsa ki, guya ki, odur ki, ona görə, ona görə də, onun üçün də, tutaq ki, həm də.
- Ədatlar sözlərdən ayrı yazılır: di get, gör ha, dedim də, sən ki, daha gözəl, lap pis, ən yaxşı.

-mı, -mi, -mu, -mü və -sana, -sənə ədatları istisnadır. Onlar aid olduqları sözlərə bitişik yazılır: Kitabdırmı? Qəşəngdirmi? Oxudumu? A kos-kosa gəlsənə, torbanı doldursana?
Qeyd. -mı, -mi, -mu, -mü sual ədatı da, -də ədatından ayrı yazılır: Sən də mi gedirsən? O yenə də mi danışacaq?

- Eyni nidanın təkrarından əmələ gələn nidalar defislə yazılır: bəh-bəh, vay-vay, pəh-pəh, uy-uy, ha-ha-ha.
- Müxtəlif sözlərdən əmələ gələn nidalar ayrı yazılır: ay aman, ay haray.

Birinci hərfi böyük yazılan sözlər:

- Xüsusi isimlərin (yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: Səməd Vurğun, Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli, Uzun Həsən, Süleyman Rüstəm, Süleyman Sani, Bəxtiyar Vahabzadə, İsgəndərlər, Mehdi Hüseynzadələr, Nizamilər, Hacı Qaralar…
- Bədii əsərlərdə heyvanlar və cansız əşyalar surət kimi işlədildikdə onların adlarının birinci hərfi böyük yazılır: Qırat, Alapaça, Bozdar, Məstan.

- Tarixi hadisələrin, dövrlərin, sülalələrin, nomenklatur terminlə işlənən yer adlarının, eləcə də qədim yazılı abidələrin və s. adlarının birinci sözünün birinci hərfi böyük yazılır: Vətən müharibəsi, Yeddiillik müharibə, Versal sülhü, Dəmir dövrü, Orxon-Yenisey abidələri, Çaldıran döyüşü, Sasanilər dövrü, Səfəvilər sülaləsi, Xəzər dənizi, Azadlıq meydanı, Şuşa qalası…

Belə mürəkkəb adlara fərqləndirici söz əlavə olunduqda onun da birinci hərfi böyük yazılır: Orta Paleolit dövrü, Son Paleolit dövrü.

- Ölkələrin, muxtar respublikaların, vilayət və diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin ilk hərfi böyük yazılır: Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Bakı Şəhər İcra Hakimiyyəti.
- Yüksək dövlət vəzifələri (Azərbaycan Respublikasının prezidenti, Azərbaycan Respublikasının baş naziri, Azərbaycan Respublikası Milli Məclisinin sədri), fəxri adlar, habelə nazirlik, komitə, birlik, cəmiyyət, qurum, akademiya, universitet, texnikum, teatr, filarmoniya, siyasi partiya, eləcə də tarixi günlərin və s. adlarının tərkibindəki bütün sözlərin (yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Heydər Əliyev adına Bakı Beynəlxalq Aeroportu, Azərbaycan Dövlət Nəşriyyatı, M. Mirqasımov adına Respublika Klinik Xəstəxanası, Beynəlxalq Qadınlar Günü, Ağstafa Rayon Təhsil Şöbəsi …
- Orden, medal, bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran, düşərgə, yeməkxana, mağaza və s. adları dırnaqda və böyük hərflə yazılır: "İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni, "Ata və oğul" povesti, "Yeddi gözəl" baleti, "Uzaq sahillərdə" filmi, "Azərbaycan" qəzeti, "Cücələrim" kafesi, "Bahar" mağazası, "Badamlı", "İstisu" mineral suları…

Qeyd: Dırnaqda yazılan belə adlara artırılan şəkilçi dırnaqdan kənarda yazılır: "Xalq qəzeti"nin bugünkü nömrəsi, "Yeddi gözəl"in ilk tamaşası.

- Mirzə, hacı, şeyx, seyid, şah, soltan, ağa, bəy, bəyim, xan, xanım və s. sözlər rütbə, ləqəb və titul bildirib sözlərdən əvvəl gəldikdə böyük, sözlərdən sonra gəldikdə isə kiçik hərflə yazılır: Mirzə Fətəli, Hacı Qara, Şeyx Nəsrullah, Seyid Əzim, Şah İsmayıl, Soltan Mahmud, Abbas mirzə, Nadir şah, Abbasqulu ağa, Fətəli xan, Heyran xanım.

# İxtisarlar (abreviaturlar)

- İxtisarlar üç cür yazılır:
- tam ixtisarlar aid olduqları sözlərə (xüsusi və ya ümumi isimlər) uyğun olaraq böyük və ya kiçik hərflə yazılır: AR (Azərbaycan Respublikası), BMT (Birləşmiş Millətlər Təşkilatı), MM (Milli Məclis), m.(metr), c. (cild)..;
- yarımçıq ixtisarlar aid olduqları sözlərə uyğun olaraq, böyük və kiçik hərflərlə, mürəkkəb adların tərkib hissələri isə bitişik yazılır: akad. (akademik), prof. (professor), Azərkitab (Azərbaycan kitabı), AzərTAc (Azərbaycan Dövlət İnformasiya Agentliyi)..;
- sözün orta hissəsinin düşməsi ilə yaranan ixtisarlar defislə yazılır: d-r (doktor), z-d (zavod)

- İxtisarlara əlavə edilən şəkilçilər onların son hecasına uyğun olaraq yazılır: MEA-dan, BMT-yə, MDB-nin

# Sözün sətirdən sətrə keçirilməsi

[redaktə | vikimətni redaktə et]

- Sözlər yeni sətrə hecalarla keçirilir: və-tən, mək-təb-li-lər

Bir saitdən ibarət hecalar istisnadır: ai-lə-li…

## Saitlər sistemi(Vokalizm)

Dildəki danışıq səsləri iki böyük qrupa ayrılır: saitlər və samitlər

*Saitlərin təsnifi*. Məlum olduğu üzrə ağ ciyərdən gələn hava axını gərgin vəziyyətdə olan səs tellərinə toxunub rəqslənmiş dalğalar halına düşərək səs cığırından ağız boşluğuna keçir və avaza çevrilir. Dil səslərinin əsası məhz belə avazlardan ibarətdir. Saitlərdə isə belə avazlar üstünlük təşkil edir.  Saitlərin təsnifini aşağıdakı prinsiplər üzrə aparmaq olar:

1. Dilin üfüqi vəziyyətinə görə
2. Dilin şaquli vəziyyətinə görə
3. Dodaqların vəziyyətinə görə
4. Kəmiyyətə görə
5. Məxrəc sabitliyinə görə
6. Gərginliyə görə

   *Dilin üfüqi vəziyyətinə görə*. Dilin üfüqi vəziyyətinə görə saitlər üç növə bölünür: dilönü saitlər, dilortası saitlər, dilarxası saitlər

   Dilönü saitlərin əmələ gətirilməsində dilin olrta hissəsi ön damağa doğru qalxmış olur ki, bunun nəticəsində ağız boşluğu iki bərabər olmayan hissəyə bölünür: böyük hissə arxada, kiçik hissə öndə qalır. Beləliklə, dilönü saitlər ma yolu dar oldəmələ gəlir. Ön hissədə rezonator kiçik həcmli və səs axının xaricə çıxma yolu

dar oldugundan səs də incəlir. Buna görə də  belə saitlər qrammatika kitablarında dilönü saitlər və ya incə saitlər adlanır.

Azərbaycan ədəbi dilindəki dilönü  saitlər bunlardır: ə, i, ö, ü

Dilortası saitıərin əmələ gətirilməsində  dilin ön və otra hissəsi bütövlükdə damağa doğru qalxmış olur ki, belə vəziyyətdə ağız boşluğu təqribən iki bərabər hissəyə bölünür. Azərbaycan dilində yalnız bir dilortası sait vardır ki. bu da e saitdir.

Dilarxası saitıərin əmələ gərtirilməsində dilin ön hissəsi alt çənənin içində yan dişlər boyunca sərt damaq içərisində geri yığılmış olur. Bunu nəticəsində də iki bərabər olmayan hissəyə ayrılan ağız boşluğunun böyük hissəsi öndə qalır ki, burada da dilarxası saitlər əmələ gəlit. Ön hissədə rezonator böyük həcmli və səs axının xaricə çıxma yolu geniş oldugundan səs də qalınlaşmış olur.

*Dilin şaquli vəziyyətinə görə.*  Dilin şaquli vəziyyətinə görə fərqlənən saitlərin formalaşmasında dilim damağa doğru qalxma və alt çənənin açılam dərəcəsi bərabər olmur. Dilin damağa doğru qalxma və alt çənənin aşağıdüşmə dərəcəsinə görə sair səslər əsasən üç növ olur: **açıq (geniş), qapalı (dar), yarımqapalı (yarımaçıq)**.

Qapalı saitlərin əmələ gətirilməsində dil damağa çox qalxır, alt çənə isə aşağı az düşmüş olur. Azərbaycan dılindəki qapalı saitlər bunlardır: **u, ü, ı. i**

Açıq saitlərin əmələ gətirilməsində dilin ön hissəsi yuxarı qalxmır, alt çənə isə aşağı az düşmüş olur. Azərbaycan dılindəki açıq saitlər bunlardır:**o, ö, a, ə**

Azərbaycan dilindəki açıq və qapalı saitlərdən başqa bir sait də vardlr ki, qapalıya yaxın olduğundan bu yarımqapalı sait hesab olunur: e yarımqapalı sait hesab olunur.

*Dodaqların vəziyyətinə görə.* Dodaqların dairəviləşməsi ilə əmələ gələn saitlərə dodaqlanan saitlər deyilir. Azərbaycan dılindəki dodaqlanan  saitlər bunlardır: **o, ö. u, ü**

Dodaqların iştirakı olmadan yaranan saitlərə dodaqlanmayan saitlər deyilir. Azərbaycan dılindəki dodaqlanmayan saitlər bunlardır: a.ə,e, i, ı

Məxrəc sabitliyinə görə. Məxrəc sabitliyinə görə saitlər səslər əsasən iki növ olur: təkavaz (monoftonq) saitlər, cütavaz saitlər.

Sait səsin əmələ gəlmə yeri səs ağızdan çıxana qədər dəyişməyib sabit qaldıqda, yəni bu və ya digər sait səsin əmələ gətirən üzv axıra qədər bir vəziyyətdə, müəyyən bir quruluşda qaldıqda təkavaz saitlər formalaşır. Azərbaycan dilindəki saitlərin hamısı, əsasən təkavaz saitrlərdir

Cütavaz saitlər iki saik məxrəcində yaranıb, bir hecada formalaşaraq tələffüz olunan saitlərə deyilir. Başqa sözlə, tələffüz zamanı danışıq üzvləri bir vəziyyətdən başqa vəziyyətə keçərkən alınan saitlərə diftonqlar deyilir.

*Kəmiyyətə görə.* Kəmiyyətə görə saitlər üç növə ayrılır: **adi saitlər, uzun saitlər, qısa saitlər.** Uzun saitlər fizioloji cəhətədn onunla fərqlənir ki, uzun saitlərin tələffüzü zamanı danışıq üzvləri gərgin vəziyyətdə, qısa saitlərin tələffüzü zamanı isə qeyri-gərhin vəziyyətdə olur.

Uzunluq müxtəlif dillərdə müxtəlif səciyyə daşıyır. Məsələn. türk dillərində uzunluq ilkin uzanma və sonrakı uzanma adı altında iki yerə ayrılır. Fransız dilində uzanmanın iki növünü göstərirlər: rimik uzunluq və tarixi uzunluq . Monqol dilində saitlər kəmiyyətə görə adi və qısa olmaqla iki yerə ayrılır.

*Gərginliyə görə.* Gərginliyə görə əsaitlər iki qrupa bölünür: gərgin saitlər və qeyri-gərgin saitlər.

Gərgin saitlərin tələffüzündə dil, dodaq, damaq, qırtlaq çox gərgin olur və belə vəziyyətdə saitlərin məxrəci çox aydın olur. Adətən, uzun saitlər uzadılaraq tələffüz olunan saitlər gərgin sayılır.

Qeyri-gərgin saitlərin tələffüzündə dil, dodaq, damaq, qırtlaq az gərginləşmiş olur və belə vəziyyətdə saitlərin məxrəci bir o qədər aydın olmur. Ümumiyyətlə, adi və qısa saitlər, eləcə də qısadılaraq tələffüz olunan saitlər qeyri-gərgin sayılır.

## Samitlərin sistemi(Konsonantizm)

Samitlər aşağıdakı prinsiplər əsasında təsnif edilir:

1. Fəal danışıq üzvlərin iştirakına görə;
2. Əmələgəlmə yerinə görə;
3. Əmələgəlmə üsuluna görə;
4. Səs tellərin iştirakına görə;
5. Kəmiyyətə görə;

6. Tərkibə görə.

*Fəal danışıq üzvlərinin iştirakına görə samitlər aşağıdakı qruplara ayrılır:*

1. Dodaq samitlər: p, b, v, f, m
2. Dil samitləri. Bunlar da öz növbəsində üç yerə ayrılır:
   a) Dilönü samitlər:d, t, s, z, n, l, j, ş, ç,c, r
   b) Diloratası samitlər: k,g, y
   c) Dilarxası samitlər: k,q, x, ğ
3. Udlaq samiti: h

*Əmələgəlmə yerinə görə samitləri aşağıdakı qruplara ayrılır*:

1. Qoşadodaq samitləri: p, b, m
2. Dodaq-diş samitləri: f, v
3. Dişarası samitləri. Bu samitlərə ingilis dilində th hərf birləşməsi ilə ifdaə olunan işarələr misal ola bilər.
4. Diş samitləri: t. d, z, s, l, n
5. Yuvaq samitlər: ş, j, ç, c, r
6. Sərt damaq samitləri: k,g, y
7. Yumşaq damaq samitləri: k,q, x, ğ
8. Boğaz samiti: h

*Yaranma üsuluna görə samitlər iki qrupa bölünür:* kipləşən samitlər və novlu samitlər.

Kipləşmiş danışıq üzvlərinin birdən-birə açılması ilə partlayışla ağızdan çıxan səs axının törətdiyi samitlərə kipləşən samitlər deyilir.

Kipləşmiş üzvlərin bir-birindən tədricən aralanması ilə və ya müəyyən üzvlərin bir-birinə yaxınlaşması ilə arada əmələ gələn cığırdan küylü səs axınının sürtünərək xaricə çıxması nəticəsində formalaşan samitlərə novlu samitlər deyilir.

Samitlərin təsnifində istifadə edilən prinsiplərdən dördüncüsü *səs tellərin iştirakına* əsaslanır. Həmin prinsipə görə samitlər iki böyük qrupa ayrılır: 1) kar samitlər 2) cingiltili samitlər

Kar samitlərin tələffüzü zamanı səs telləri etmir. Odur ki, hava axını xirtdəkdə heç nəyə sərf olunmadan ağız boşluğuna daxil olur və yarnmış tam və ya yarımçıq maneənin aradan qaldırılmasında iştirak edir. Buha görə də kar samitlər eyni zamanda güclü samitlər hesab edilir və belə də adlandırılır.

Cingiltili samitlərin tələffüzündə isə səs telləri iştirak edir. Hava axını xirtdəkdə səs tellərini titrəməyə qismən sərf olunduğundan cingiltili samitlər kar samitlərə nisbətən zəif olur. Bununla əlaqədar olaraq, cingiltili samitlərə zəif samitlər də deyilir.

Səs tellərinin titrəməsinin səciyyəsindən asılı olaraq, cingiltili samitlər özləri də iki yerə bölünür. Bəzi cingiltili samitlərin tələffüzü zamanı səs telləri ahəngdar hərəkət edir. Odur ki, bu zaman yaranan samitlərdə saitlərdə olduğu kimi, musiqli ton olur; başqa sözlə, ton küyə üstün gəlir. Belə samitlər sonor samitlər adlanır.

Bəzi cingiltili samitlərin tələffüzü zamanı isə səs tellərinin titrəməsi qeyri-ahəngdar olduğundan həmin samitlərdə küy tondan üstün olur. Belə samitlər küylü samitlər adlanır.

Tərkibə görə samitlər iki cür olur: 1) saf samitlər; 2) qovuşuq samitlər.

Azərbaycan dilində 2 qovuşuq samit var: ç və c samitləri. "C" samiti d və j samitlərinin, "Ç" samiti isə t və ş samitlərinin qovuşmasından yaranmışdır. Qalan samitlərin hamısı saf samitlərdir.

Samitlərin təsnifində istifadə olunan axırıncı prinsip onların *kəmiyyətcə fərqinə əsaslanan prinsip*dir.Həmin prinsipə görə samitlər iki yerə bölünür: 1) sadə samitlər 2) geminat samitlər

**Adi kəmiyyətlə istifadə olunan samitlərə sadə, uzun kəmiyyətdə tələffüz olunanlara isə geminat samitlər deyilir.** Məsələn, Azərbaycan dilində adam sözündəki d sadə, addım sözündəki dd isə fonetik cəhətdən geminat samit hesab oluna bilər.

Qeyd etmək lazımdır ki, geminat samitlər Azərbaycan dilində müstəqil fonemlər deyil.

## Tələffüz üslubu

Müasir Azərbaycan ədəbi dilində bu söz həm ümumi-əsas mənasına

müvafiq işlənilən bir kəlmədir, həm də söyləniş mənası ilə bağlı bir anlayışı bildirən, daha doğrusu (söyləmə) prosesi ilə əlaqədar olaraq dil səslərinin müxtəlif təzahürlərini ümumiləşmiş halda ifadə edən termindir.

Bu baxımdan tələffüz ilə müəyyən dərəcədə əlaqədar olan aşağıdakı əlamətləri, cəhətləri yada salaq:

* Azərbaycan dilinin fonetik sistemində samitlərin əsasən kar və cingiltili qarşılığının

bir qanunauyğunluq olması qarşılıqlı samitlərin formalaşmış müstəqil mənalı söz və morfemlərin fərqlənmiş halda işlənməsi üçün əsas təşkil edir. Məs: gül-kül, yax-yağ, bax-bağ, at-ad, as-az.

* Samit səslərin kar və cingiltili qarşılığa malik olması tələffüz prosesində bəzi

fonetik qanunların yaranması üçün əsas təşkil edir. Məs: kitab-kitap, ağac-ağaç, daraq-darax.

* Danışıq prosesində sözlərin dəqiq anlaşılmasını təminedici fonetik çalarlıq ilə

əlaqədar bəzi hallar düzgün tələffüz norması sayılır. Məs: çiçək yazılsa da çiçəx' .

* Sözlərdə əsasən, eyni məzmunu formalaşdırıcı morfoloji vahidlərinin əsasən iki və

ya dörd cür fonetik təzahürünü təmin edən qanunauyğunluqlar müəyyən dərəcədə tələffüz ilə bağlıdır. Məs: səs artımı, səs düşümü, xüsusən də ahəng qanununa görə şəkilçilərin iki, dörd variantda olması.

Məlum olduğu üzrə, ədəbi dil ümumiləşdirilmiş normalar əsasında formalaşmış bir dildir. Bu dil şifahi və yazılı qollara ayrılmaqla, onun normaları da həm yazıda, tələffüzdə əhatə edir.

Buradan belə bir nəticə çıxarmaq olar ki, ədəbi dilin yazılı qolu dilin fonetik sistemini yazıda ümumiləşdirilmiş halda sabitləşdirən orfoqrafik normalarla təzahür etdiyi kimi, ədəbi dilin şifahi qolu da dilin fonetik sisteminin tələffüzdə

ümumiləşdirilmiş halda sabitləşdirən tələffüz normaları ilə təzahür etdiyi ki, buna daha konkret halda orfoepiya qaydaları – normaları deyilir.

* Nitqin məqsəd və şəraitlə əlaqədar olaraq müxtəlif çalarlarda formalaşmış qol və budaqları isə ümumiləşmiş halda dilin üslubları adlanır.

Bizim mövzumuz tələffüz üslubları deyildir, daha doğrusu, biz burada ancaq oroepik üslublardan məlumat verməliyik.

**Tam üslub.** Bu üslubun əlamətdar cəhətləri aşağıdakılardır.

Sözlərin fonetik qabığını təşkil edən səslər məxrəclərinə görə çox aydın, bu səslərdən formalaşmış hecalar isə, adətən üzvlənmiş halda, nitq zəncirinin dürüst-aydın seçilə bilən halqaları kimi tələffüz olunur. Tam üslubda sözün tərkibindəki hecaların ayrı-ayrı tələffüzü bəzən süni tələffüz təsir bağışlaya bilər, lakin nəzərə almaq lazımdır ki, heç bir danışıq əvvəldən axıra qədər tam üslubda qurulmur.

Tam üslubda hecaların aydın və ayrı-ayrı tələffüzü üstünlük təşkil etdiyində, bəzi mütəxəssislər bu üslubu hecayi üslub adlandırırlar.

Beləliklə, aydın olur ki, tam üslub ciddi, rəsmi, dürüst, dəqiq, təsirli üslubdur.
**Sərbəst üslubun** əlamətləri aşağıdakılardır.

* Cümlənin əvvəlində olan sözün başındakı səslərin məxrəclərinə görə aydın tələffüzü zəruridir. K[i]tab aldım. Şad xəbər [e]şitdim.

* Vurğulu səslərin də məxrəcləri aydın tələffüz olunmalıdır; q [ələ]min [u]cu, yazmağa çal[ı]ş. Çalış.

* Sözün tərkibində olan, lakin başda yox, ortada və sonda yerləşən vurğusuz səslərin tələffüzündə məxrəc aydınlığı zəruri deyildir. Yadı, yar (yadigar) və s.

* Sözün tərkibində olan səslərdən bəziləri, xüsusən saitlər ya çox qısa, ya da çox uzun

tələffüz lunur; yazı-cı, yazı:r, sayı-lır, ayı-lır.

* Sözün tərkibində olan səslərdən bəziləri şəraitdən asılı olaraq ixtisara düşür, ya da

son dərəcə qısa tələffüz olunur. Yaz[ı]çı, say[ı]lır və s.

* Sözün tərkibindəki səslərdən bəzilərinin qısa tələffüzü və ixtisara düşməsi

nəticəsində sözün hecaları ayrılmış halda deyil, qarışıq halda tələffüz olunur: qar[ı]şar, qo[v]uşar.

* Cümləni təşkil edən sözlər, eləcə də cümlə üzvləri azacıq qovuşuq tələffüz olunur, əvvəli sözün son hecası sonrakı sözün ilk hecası ilə qovuşur. Ümumiyyətlə, sözlərin tərkibindəki səslərin yaxın məxrəcli səslərlə orfoepik çalarlıq mahiyyətində əvəzlənərək tələffüz olunmasına bu üslubda daha çox yol verilir: əllaltı (əlli[altı], güllidi  [güllü idi].

* Səslərin ümumi orfoepik normalarına əsasən riayət olunur, danışıq aramla deyil,

sürətli olur. Buna görə də durğu, fasilə əksər halda ixtisar olunur.

* Tələffüz normalarına uyğun olmayan bir sıra çalarlıqlara, xüsusən

1)şiəçilik, köhnəlik, əcnəbilik çalarlıqlarına sərbəst üslubda az-çox yol verilir. Məs: mana [mənə].

2) köhnəlik, yəni bir zaman ədəbi tələffüz normaları baxımından qanuni, məcburi sayılan, lakin müasir dövrdə köhnəlmiş kimi tələffüz olunan; məs. qaidə (qayda), faidə (fayda)

3) Əcnəbilik. Məs. stakan, çaynik, folklor. Dilin fonetik sistemi və fonetik qanunları hər bir üslub üçün ümumi və əsasdır.

## Vurğu və intonasiya

Dilin səs sistemində çox mühüm yer tutan fonetik vahidlərdən biri də vurğudur. Söz və ya söz birləşməsinə daxil olan hecalardan birinin davamlılığın, gərginliyin və ucalığın artması, habelə səsin güclənməsi və ya tonun yüksəlməsi ilə tələffüz olunmasına vurğu deyilir.

Vurğunun müxtəlif prinsiplərə görə müxtəlif növləri vardır ki, bunlar əsasən aşağıdakılardır:

1. Sabit vurğu
2. Sərbəst vurğu
3. Məntiqi vurğu
4. Həyəcanlı vurğu

Sözün həmişə eyni bir hecasına düşən vurğuya sabit vurğu deyilir. Məsələn, vurğu sözün sonuncu hecasına düşürsə, sözün sonuna şəkilçi artırıldıqca vurğu da onun üzərinə keçir. Sabit vurğuya daimi vurğu, bağlı vurğu və s. deyilir.

Sərbəst vurğu, müxtəlif yerli vurğu, ənənəvi vurğu terminləri ilə adlandırılan qeyri-sabit vurğu sözün ən müxtəlif hecalarına düşə bilən vurğuya deyilir.

Danışıq zamanı sözlərdən birinin nəzərə çarpdırılması üçün daha qüvvətlə deyilməsinə məntiqi vurğu deyilir. Hiss, həyəcan, müxtəlif münasibət ifdaə edən vurğu isə həyəcanlı vurğu adlanır adlanır.

### İntonasiya

Səs tonun yüksəkliyinin, vurğunun, tələffüz sürətinin və tembrin mürəkkəb vəhdətinə intonasiya deyilir. İntonasiya fikirin ifadə vasitəsi olub, danışanın öz dediklərinə münasibətini əks etdirir. İntonasiyanın bir çox növü vardır. Onlardan aşağıdakıları

xüsusilə qeyd etmək olar: aydınlaşdırıcı intonasiya, ayrıcı intonasiya, əmr intonasiyası, nəqli intonasiya, nida intonasiyası, sual intonasiyası.

Aydınlaşdırıcı intonasiyadan sadə və mürəkkəb cümlələrin xüsusi növlərində istifadə olunur.Aydınlaşdırma intonasiyası budaq cümləsi baş cümləni aydınlaşdıran cümlələrdə (məsələn, lakin onun bircə nöqsanı var idi ki, o da onun  dərs danışarkən utanması idi) istifadə olunur. Bu intonasiyadan sadə cümlələrdə cümlə üzvlərindən birini  aydınlaşdırmaq və konkretləşdirmək vasitəsi kimi də istifadə olunur.Məsələn, Aygün əsas fənlərdən, daha doğrusu, ana dili və riyaziyyatdan yüksək qiymət alırdı.

Ayrıcı intonasiya bölgü bildirən bağlayıcılı cümlələrdə istifadə edilir. Daha çox tabesiz mürəkkəb cümlələrdə işlənir:  Ya biz məktub yazacağıq, ya onlar teleqram vuracaqlar.

İntonasiyanın digər növləri (nəqli, nida, sual intonasiyaları) bilavasitə cümlənin intonasiyaya görə növləri ilə əlaqədardır.

# Dil və yazı

## *Plan:*

- *Yazı və onun mənşəyi.*
- *Yazının xüsusiyyətləri.*
- *Yazının tipləri.*
- *Piktoqrafik yazı və onun xüsusiyyətləri*
- *Ideoqrafik yazı və onun xüsusiyyətləri*
- *Heca yazısı və onun xüsusiyyətləri*
- *Səs yazısı və onun xüsusiyyətləri*

- *İstiqamətlərinə görə yazıların təsnifi: şaquli və üfüqi yazılar*

Yazı – görmə vasitəsilə dərk edilib, fikrin ifadəsində əsas ünsiyyət vasitəsinə köməkçi olan işarələr sistemidir. Yazı özünəməxsus bir sıra xüsusiyyətlərə malikdir. Birincisi, yazı şifahi nitqə köməkçi bir ünsiyyət vasitəsi kimi yaranmışdır. Ona görə yazını heç vaxt dildən ayrı təsəvvür etmək mümkün deyildir. İkincisi, bu və ya digər fikri başqasına çatdırmaq mümkün olmayan yerdə yazı həmişə insanların köməyinə çatır, çox-çox uzaq məsafələrdən adamların bir-biri ilə "danışmasına" – ünsiyyət saxlamasına şərait yaradır, onların söz-söhbətini, fikir və düşüncələrini bütün tarix boyu mühafizə edib saxlamağa imkan verir. Üçüncüsü, yazı işarələr sistemindən ibarət olub, şərti işarələrlə yazılır və görmə üzvlərimizin köməyi ilə oxunur.

Yazı insanların dillə ünsiyyət saxlamaları mümkün olmadığı şəraitdə, çox tədrici şəkildə, həm də zəruri tələbat əsasında əmələ gəlmişdir. Lap qədim zamanlardan – yazının mövcud olmadığı bir dövrdə insanlar öz fikirlərini uzaq məsafəyə çatdırmaq üçün çox müxtəlif əşya və digər şeylərdən istifadə etmişlər. Yazının meydana gəlməsi tarixi ilə məşğul olanların bir qrupu, insanların öz fikirlərini əşya vasitəsilə əks etdirmələrini "əşya yazısı" adlandırmışdır. Yazı xətlərdən, cizgilərdən ibarət olduğuna görə, fikrin şərti mənalı əşyalarla ifadə olunmasını, sözün əsl mənasında yazı adlandırmaq, əlbəttə, düzgün deyildir. Lakin qeyd etmək lazımdır ki, fikrin şərti mənalı əşyalarla ifadə olunması1 yazının formalaşmasına böyük təsir göstərmişdir.

Yazının inkişafı cəmiyyətin inkişafı ilə əlaqədardır. yazının dörd əsas tipi vardır:

1. Piktoqrafik, yaxud şəkli yazı;

2. İdeoqratik, yaxud fikri yazı;

3. Sillaboqrafik, yaxud heca yazısı;

4. Fonoqrafik, yaxud səs yazısı.

Yazının bu tiplərinin hər biri bu və ya başqa xüsusiyyətlərinə görə bir-birindən əsaslı surətdə fərqlənir.

1. **ŞƏKLİ (PİKTOQRAFİK) YAZI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ.** Bu və ya digər məlumatın, yaxud hadisənin şəkillər vasitəsilə ifadə edildiyi yazıya piktoqrafik, yaxud şəkli yazı deyilir. Piktoqrafik2 yazıdakı hər bir ünsür piktoqram adlanır.

Piktoqrafik yazıda hər şəkil (piktoqram) bir və ya bir neçə cümləni əks etdirir. Belə yazıda nitq sözlərə bölünmür, bütöv cümlələrlə ifadə olunur. Piktoqrafik yazılarla ifadə edilən mövzuların əhatə dairəsi bir o qədər geniş olmamışdır. Əsasən ov səhnələri, vuruş və qaçış hadisələri, ticarət müqavilələri və s. mövzular bu yazılarda öz əksini tapmışdır. Şəkli yazıdan Şimali Amerika hindiləri daha çox istifadə etmişlər. Yazının bu növünə başqa xalqların, məsələn, qədim şumer və misirlilərin tarixində də təsadüf olunur. Təsadüfi deyil ki, eramızdan üç min il əvvəl şumerlər heca yazışma keçdikdə yüksək dərəcədə inkişaf etmiş olan şəkli yazıdan istifadə etmişlər. Qədim misirlilərin də yazısı eyni inkişaf yolu keçmişdir. Bu yazının özünəməxsus bir sıra xüsusiyyətləri vardır.

1. Şəkli yazıda müvafiq şəkillərlə bu və ya digər əşya, yaxud hərəkət göstərilir və onlar haqqında məlumat verilir. Bu məlumat eyni zamanda əyani xarakter daşıyır.

2. Şəkli yazı sintetik xarakterlidir. Belə ki, müəyyən bir şəkil vahid mürəkkəb quruluşa malik olub, bütöv bir mövzunu əks etdirir.

3. Belə yazılarda dil formaları əks olunmur, yəni burada məlumat söz və ifadələrlə göstərilmir.

4. Şəkli yazıda hər bir piktoqram, adətən, bütöv cümlələrə uyğun gəlir.

5. Bu yazıda piktoqramlar aydın və sadə xarakterlidir.

6. Şəkli yazı qədim insanların məişəti ilə çox əlaqədar olduğundan hamı tərəfindən aydın oxunurdu.

7. Şəkli yazı vasitəsilə ən incə və geniş fikirləri ifadə etmək mümkün deyildir.

8. Piktoqrafık yazı təlim-təhsil məqsədi daşımırdı. Buna görə də bu yazı vasitəsilə ancaq uzun zaman yadda qalması vacib olan hadisə və s. əks etdirilirdi.

Bu yazının özünəməxsus xüsusiyyətlərindən biri də onun hər dildə oxuna bilməsi olmuşdur. Belə ki, şəkli yazını müxtəlif dillərdə danışan hər xalq öz dilində oxuya bilirdi.

2. FİKRİ (İDEOQRAFİK) YAZI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ. Nitqdəki sözlərin şəkillər vasitəsilə deyil, ideoqramlarla əks olunmasına ideoqrafik, yaxud fikri yazı deyilir. İdeoqrafik1 yazıdakı hər bir ünsür ideoqram adlanır. Heroqliflər və digər işarələr ideoqramlara daxildir. İdeoqrafik yazı elə yazı sistemidir ki, burada hər bir işarə bütöv bir sözü, yaxud sözün mənalı hissəsini bildirir. Ona görə də bu yazı sistemi eyni

zamanda söz yazısı da adlanır. İdeoqrafik yazı ilə şəkli yazı sistemi arasında möhkəm əlaqə olmuşdur. Bu əlaqə hətta şəkli yazının ideoqrafik yazı üçün bünövrə təşkil etməsində mühüm rol oynamışdır. Ona görə ki, ilk ideoqramlar zahirən, bir növ, piktoqramlara oxşayırdı. Bunu nəzərə alaraq yazının tarixi ilə məşğul olan tədqiqatçılar ideoqramı piktoqramdan fərqləndirmək üçün onun formasına deyil, məzmununa fikir verməyi məsləhət görmüşlər. Piktoqramla ideoqramı bir-birindən seçmək üçün başlıca olaraq piktoqramların bütöv hadisəni, ideoqramların isə ayrı-ayrı sözləri ifadə etməsi əsas götürülür.

Ən qədim ideoqrafik yazılardan biri Misir yazısıdır. Bu yazı bizim eradan əvvəl Afrika qitəsində yaşamış bir sıra xalqlar arasında geniş yayılmışdır. Qədim Misir yazısının inkişaf dövründə 3 yazı forması meydana çıxmışdır: heroqlif yazı, heratik yazı, demotik yazı. Bu yazılar istər formasına, istər mahiyyətinə, istərsə də istifadə olunma yerinə görə bir-birindən fərqlənirdi.

Heroqlif yazı – Misir yazısının ilk formasıdır. Bu heroqlif yazıdakı heroqliflərin müəyyən hissəsi bitki, əşya, quş və heyvan şəkillərindən, digər qismi isə simvolik işarələrdən ibarət olmuşdur. Heroqlif yazıdan təntənə məqsədilə istifadə edilirdi.

Heratik yazı – heroqliflərin qismən təkmilləşmiş, sxematik şəkil xarakterindən uzaqlaşmış formasıdır. Həmin yazıda dolaşıq xətlər get-gedə çoxalmış və nəticədə ondan istifadəni xeyli ağırlaşdırmışdır. Heratik yazıdan, əsasən, elmi məsələləri əks etdirmək üçün istifadə olunmuşdur. Misirlilər bu yazını dəri və sair yumşaq materiallar üzərində yazmışlar. Həmin dövrdə yazı alətləri qismən təkmilləşmişdi.

Demotik yazı – Misir yazısının yüksək inkişaf etmiş formasıdır. "Demotik" xəlqi deməkdir. Bu yazının xətləri asan və sadədir. Demotik yazı geniş ictimai mahiyyət kəsb etmişdir. Bundan ictimai həyatda, o cümlədən dəftərxanalarda geniş istifadə olunmuşdur. Bu yazı tacirlərin, sənətkarların və digər şəxslərin də işini yüngülləşdirməyə az kömək etməmişdir.

Misirlilərin yazı inkişafının sürətlənməsində papirusdan yazı ləvazimatı kimi istifadə etmələri böyük bir hadisə oldu. Yazı üçün papirus əsasən iki cəhətdən əhəmiyyətli idi: birincisi, papirusa tez yazmaq olurdu; ikincisi, bu, yazının kütlə arasında geniş yayılmasına imkan yaradırdı. Yazı tarixində Misir yazısı çox böyük əhəmiyyətə malikdir. Bu yazı bir sıra başqa yazıların, o cümlədən minoy yazısının inkişafına böyük təsir göstərmişdir.

3. HECA (SİLLABOQRAFİK) YAZISI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ Hecaları şərti işarələrlə göstərən yazıya sillaboqrafik1 , yaxud heca yazısı deyilir. Bu yazı sisteminin tələbinə görə dildə nə qədər heca (səs birləşmələri) varsa, bir o qədər də işarə – sillaboqram olmalıdır. Heca yazının ünsürlərinin formalaşdığı ən qədim yazılardan biri də şumerlərin yazısıdır. Qədim heca eramızdan qabaq üçüncü minilliyin əvvəlində şumer yazısında əmələ gəlmişdirŞumer yazısı zahiri əlamətlərinə görə başqa yazılardan fərqlənirdi. Bu yazının işarələri mismara-mıxa bənzəyirdi. Elə buna görə də həmin yazının işarələrinin forması nəzərə alınaraq ərəbcə "mismari", fars dilində "mixi" yazı adlandırılmışdır. Azərbaycan dilində də həmin yazı "mixi yazısı" adlandırılır.

4. SƏS (FONOQRAFİK) YAZISI VƏ ONUN XÜSUSİYYƏTLƏRİ Şərti işarələrlə dilin səslərini əks etdirən yazıya fonoqrafik, yaxud səs yazısı deyilir. Yazının başqa tiplərindən fərqli olaraq, fonoqrafik1 yazıda dilin bu və ya digər səsi, əsasən, ayrı-ayrı qrafemlərlə, yəni hərflərlə (qrafik işarələrlə) yanaşı, digər işarələrdən, yəni orfoqrafik işarələrdən (apostrof, hərəkə və sair işarələrdən) də istifadə edilir. Hərfli yazılar xarakterlərinə görə iki yerə bölünür: konsonant yazı və vokallaşdırılmış yazı. Bəzi yazılarda ancaq samit səslər hərflərlə göstərilirdi. Bu cür yazılar konsonant adlanır. Digər qrup yazılarda isə sözlərdəki həm sait, həm də samitlər hərflə əks olunur. Belə yazılar tam fonoqrafik – vokallaşdırılmış yazıdır. Hərfli yazı əlifbanın inkişafı tarixində ən yüksək pillədir. Bu yazı həm yazmaq, həm də oxumaq üçün sadə, asan və çox əlverişlidir. Bunun vasitəsilə insan düşüncəsinin bütün incəliklərini ifadə etmək olur ki, o, özündən əvvəlki yazı tiplərindən əsaslı surətdə fərqlənir.

Müasir fonoqrafik yazılarda istifadə olunan vasitələrdən biri də durğu işarələridir. Bunlar yazıda xüsusi qrup təşkil edərək köməkçi xarakterə malikdir. Belə ki, hərfsiz bunların vasitəsilə heç bir səsi əks etdirmək mümkün deyildir. Durğu işarələri nitqin sintaktik bölünməsinə, cümlələrin sərhədini müəyyən etməyə, intonasiya və məna çalarlarını əks etdirməyə kömək məqsədilə işlənilir. Durğu işarələri, əsasən, fonoqrafik yazıdan başlanır. Yazıda əlifba yarandıqdan sonra durğu işarələri əmələ gəlmişdir. İlk dəfə Finikiyada, Yunanıstanda bu vasitədən istifadə olunmuşdur. Durğu işarələrinin birinci nümayəndəsi nöqtədir. Bu işarə hazırkı vəzifəsinə qədər bir çox məqamlarda müxtəlif məqsədlər üçün işlənilmişdir. XII əsrdən nöqtə indiki vəzifədə işlənilməyə başlanmışdır. Dünya xalqlarının uzaq keçmişindən xəbər verən qədim yazılı abidələri və müasir nümunələri əsasında yazıları istiqamətə görə iki qrupa bölmək olar: üfüqi yazılar, şaquli yazılar.

Yazının inkişafına təsir edən vasitələrdən biri də yazı ləvazimatıdır. Yazı tarixində ən yararlı vasitə kağız olmuşdur. Kağız ilk dəfə bizim eranın II əsrində Çində meydana çıxmışdır. Kağızı Tzay Lui kəşf etmişdir. Çinlilərin istehsal etdikləri kağız bitkidən hazırlanırdı. VIII əsrin sonunda Bağdad və Dəməşqdə kağız istehsal olunmuşdur. IX əsrin ortalarında Misirdə və başqa yerlərdə də kağız meydana çıxmışdır.